"20 yanvar 1990-cı il Azərbaycanın tarixinə ən faciəli günlərdən biri kimi daxil olub"



Bax 6

Dünya İqtisadi Forumunun Azərbaycanda regional mərkəzinin yaradılması haqqında niyyət protokolu imzalanıb



Bax 6

"Moody's" beynəlxalq reytinq agentliyi Azərbaycandan yazdı

MOODY'S

Bax 6




"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 010 (5975) 22 yanvar 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Qanlı Yanvar hadisələri xalqımızın qəhrəmanlıq səhifəsidir!



Prezident İlham Əliyev Qanlı 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə əlaqədar şəhidlərin əziz xatirəsini yad edib

Bax 2

"İranla dövlət sərhədində yeni buraxılış məntəqələrinin fəaliyyəti məsələləri müzakirə olunur"



Bax 7

"Human Rights Watch" - qərəz və şantaj təşkilatı




Bax 15

Lev Spivak: Əminəm ki, formalaşacaq parlament ölkədəki yeniliklərə uyğun olacaq



Bax 7

# Qanlı Yanvar hadisələri xalqımızın qəhrəmanlıq səhifəsidir!



## Prezident İlham Əliyev Qanlı 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə əlaqədar şəhidlərin əziz xatirəsini yad edib





***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad ediblər. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu. Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycan Respublikasının dövlət himni səsləndi.***

x x x

Qanlı Yanvar hadisələrindən 30 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Doğma Vətəninin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları düz 30 il əvvəl həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının ovaxtkı rəhbərlərinə və onların Azərbaycandakı əlaltılarına dərin nifrətini bildirir.

Keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən Ermənistanın təcavüzkar siyasətinin açıq-aşkar dəstəklənməsinə və respublikanın ozamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış geniş xalq kütlələrinin üzərinə sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciəyə gətirib çıxardı, böyük itkilərlə, günahsız insanların ölümü ilə nəticələndi. Buna baxmayaraq, Azərbaycanın ovaxtkı səriştəsiz, kölə psixologiyalı rəhbərlərinin yenə də xalqla bir olmağa cəsarəti çatmadı və onlar sovet rəhbərliyinin ətəyindən yapışmaqda davam etdilər.

Onlardan fərqli olaraq, həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev özünün və ailə üzvlərinin həyatının təhlükədə olmasına baxmayaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gəldi, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da Ulu Öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi. Məhz ümummilli lider Heydər Əliyevin bu cəsarətli addımı sayəsində dünyanın mütərəqqi qüvvələri də Azərbaycan xalqının məruz qaldığı bu dəhşətli və amansız terroru qətiyyətlə pislədi.

Əlbəttə, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə - azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcək.

Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı, SSRİ və Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını cinayətkarcasına pozmuşdu.

Vaxtında dərindən araşdırılmayan və lazımi qiymətini almayan faciəyə yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra məhz Ulu Öndərin təşəbbüsü ilə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verildi. Azərbaycan Respublikası Prezidentinin "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" 1994-cü il 5 yanvar tarixli Fərmanında Azərbaycan Respublikasının Milli Məclisinə Qanlı Yanvar hadisələri ilə bağlı xüsusi sessiyanın keçirilməsi məsələsinə baxmaq tövsiyə edildi. Milli Məclisin 1994-cü il martın 29-da qəbul etdiyi Qərarda 20 Yanvar faciəsinin günahkarları konkret qeyd olundu və bu qanlı aksiya Azərbaycanda milli azadlıq hərəkatını boğmaq, xalqın inamını, iradəsini qırmaq üçün totalitar kommunist rejimi tərəfindən törədilmiş hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. 20 Yanvar - Ümumxalq Hüzn Günü elan edildi.

Azərbaycan xalqı hər il 20 Yanvar şəhidlərinin xatirəsini dərin ehtiramla yad edir. Faciənin otuzuncu ildönümü ilə əlaqədar Azərbaycanda və dünyanın müxtəlif ölkələrində silsilə anım mərasimləri, sərgilər, konfranslar keçirilir, bu qanlı qırğın, eləcə də Azərbaycan xalqının müstəqillik əzminin sarsılmazlığı bütün dünyaya çatdırılır. Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu il dekabrın 13-də "20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında" Sərəncam imzalayıb. 20 Yanvar faciəsinin Azərbaycan xalqının müstəqillik mübarizəsində yeri və rolunun xüsusi vurğulandığı həmin Sərəncamda deyilir: "1990-cı ilin 20 yanvarında Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda çox sayda şəhid verdi. Lakin onun iradəsi sınmadı və milli ruhu sarsılmadı. Həmin qırğın zamanı ümummilli mənafelərin müdafiəsi naminə canlarından keçmiş və şəhidlik zirvəsinə ucalmış Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni parlaq səhifə yazdılar".

Vətənin azadlığı uğrunda canlarından keçən şəhidlərin xatirəsi daim əziz tutulduğu kimi, onların ailə üzvləri, doğmaları da hər zaman dövlət qayğısı ilə əhatə olunub. Eləcə də 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı həmişə dövlətimizin başçısının diqqətindədir. 20 Yanvar şəhidlərinin ailə üzvləri və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər həyata keçirilir. Şəhid ailələrinin pensiya təminatı, mənzil şəraitinin yaxşılaşdırılması, yaşayış səviyyəsinin yüksəldilməsi ilə bağlı mükəmməl qanunvericilik bazası yaradılıb. Dövlətimizin başçısı bu istiqamətdə sərəncamlar və fərmanlar verib. Bundan başqa, əlillərin reabilitasiyası üçün respublikada yeni sağlamlıq mərkəzləri inşa olunub. Ötən il əlil və şəhid ailələrinə yeni mənzillər verilib ki, onların arasında 20 Yanvar əlilləri və şəhidlərinin ailələri də var. 20 Yanvar faciəsində şəhid olan şəxslərin ailələrinə Prezident təqaüdü verilir. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da yaxşılaşdırılır.

x x x

Yanvarın 20-də - Ümumxalq Hüzn Günündə dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etdilər. Şəhidlər xiyabanının ziyarət olunması mərasimində Baş Nazir Əli Əsədov, Milli Məclisin Sədri Oqtay Əsədov və Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev iştirak ediblər.

# İlham Əliyev: Azərbaycanın vahid və dayanıqlı dünyada rolu






The Baku International Sea Trade Port in the Alat township of Baku's Garadagh District. Image: Wikimedia Commons

***Dünyanın çox nüfuzlu Davos İqtisadi Forumunun rəsmi saytında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycanın vahid və dayanıqlı dünyada rolu" sərlövhəli məqaləsi yerləşdirilib. AZƏRTAC məqaləni təqdim edir.***

Dünya İqtisadi Forumu siyasətçiləri, biznes adamlarını və ictimai təşkilatları bir araya gətirən və dünyada baş verən iqtisadi proseslərin, dünyanın iqtisadi gündəliyinin, habelə ictimai-siyasi proseslərin müzakirə olunduğu ən böyük platformalardan biridir. Forum dünyada gedən iqtisadi meyillər haqqında dolğun məlumat əldə etməyə geniş imkan verir.

Mən 2007-ci ildən başlayaraq artıq 14-cü dəfədir ki, Davosda bu Forumun İllik Toplantısında iştirak edəcəyəm. Dünya İqtisadi Forumu Azərbaycan reallıqlarını beynəlxalq ictimaiyyətə təqdim etmək üçün gözəl bir platforma olmaqla yanaşı, dünyada baş verən iqtisadi meyillər haqqında dolğun məlumat əldə etməyə imkan yaradır. Bu, bizə islahatları davamlı şəkildə aparmağa, ölkəyə xarici investisiyaları cəlb etməyə imkan verir.

Bu islahatlar nəticəsində 2007-ci ilin əvvəli ilə müqayisədə 2019-cu ildə ölkə iqtisadiyyatının həcmi 80 faiz, o cümlədən qeyri-neft sektorunun həcmi 2,1 dəfə, strateji valyuta ehtiyatları 13 dəfə artıb, ölkədə yoxsulluq səviyyəsi 4 dəfədən çox, işsizlik səviyyəsi isə əhəmiyyətli dərəcədə azalaraq 4,9 faizə çatıb. Bu dövrdə ölkəmiz iki dəfə "Doing Business 2009" və "Doing Business 2019" hesabatlarında dünyanın lider islahatçı ölkəsi olaraq tanınıb.

2007-ci ildən keçən dövr ərzində ölkəmizə 111 milyard ABŞ dollarından çox xarici investisiya cəlb olunub ki, bu da iqtisadiyyatın bütün sahələrində irəliləyişləri təmin edib. Nəticə etibarilə, Davos İqtisadi Forumunun açıqladığı "Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycanın mövqeyi 2006-2007-ci ildə 64-cü yerdə idisə, 2017-2018-ci ildə 137 ölkə arasında 35-ci yerə qədər yüksəlməklə, 2019-cu ildə "Əhalinin elektrik təchizatı səviyyəsi" üzrə dünyada 2-ci yer tutan ölkələr sırasında, "Hökumət tənzimləməsinin yükü" və "Əcnəbi işçilərin işə qəbulunun asanlığı" üzrə 3-cü yerdə, "Hökumətin dəyişməyə cavabdehliyi" üzrə 5-ci yerdə, "Biznesə başlama üçün tələb olunan günlərin sayı" üzrə 8-ci yerdə, "Hökumətin uzunmüddətli strategiyası" üzrə isə 10-cu yerdə qərarlaşıb.

## Strateji nəqliyyat qovşağı

2019-cu ildə həmin hesabatda Azərbaycan 141 ölkə arasında "Dəmir yolu xidmətlərinin səmərəliliyi" üzrə 11-ci, "Hava yolları xidmətlərinin səmərəliliyi" üzrə 12-ci, "Dəniz limanları xidmətlərinin səmərəliliyi" üzrə 25-ci, "Yolların keyfiyyəti" üzrə 27-ci yerdə qərarlaşıb. Bəs bu necə oldu? Ölkənin nəqliyyat və yol infrastrukturunun əhəmiyyətli inkişafı xarici və yerli investisiyaların cəlb olunması ilə mümkün olub. Lakin nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi təkcə kapital hesabına olmayıb, burada əməkdaşlıq da önəmli rol oynayıb. Forum çərçivəsində əməkdaşlıq Azərbaycanı Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizlərinin önəmli aktoruna, beynəlxalq nəqliyyat qovşağına çevirib. Ölkəmizin təşəbbüsü ilə Azərbaycan, Gürcüstan və Türkiyənin dəmir yollarını birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi reallaşaraq 2017-ci ilin oktyabr ayından istifadəyə verilib. Bu, Asiya ilə Avropanı ən qısa yolla birləşdirən davamlı nəqliyyat dəhlizidir. Bundan başqa, Xəzərdə ən böyük liman olan yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı tikilərək 2018-ci ilin may ayında istifadəyə verilib.

Azərbaycan daim ekoloji tarazlığı qoruyub saxlamaqla, yəni, ətraf mühiti qorumaqla öz vətəndaşlarının sosial-iqtisadi inkişafına çalışır. Yerli və beynəlxalq daşımaların idarə olunmasının təkmilləşdirilməsi, o cümlədən təhlükəsizliyin yüksək səviyyədə təmin edilməsi məqsədilə "Ağıllı şəhər" konsepsiyasına start verilib. Bu konsepsiyanın məqsədi resursların istehlakı, israfı və ümumi xərcləri azaltmaqla enerji, nəqliyyat və kommunal xidmətlər kimi şəhər xidmətlərinin keyfiyyətini artırmaqdır.

## Enerji sektorunda əsas iştirakçı

Azərbaycan enerji layihələrini də uğurla həyata keçirməyə davam edib. Avropaya qaz təchizatının şaxələndirilməsi istiqamətində Avropanın səylərinə dəstək verən Azərbaycan "Cənub Qaz Dəhlizi" layihəsinin reallaşmasına nail olub. Uzunluğu 3500 kilometr olan bu layihə Xəzər regionundan qaz təchizatını Avropa bazarlarına birləşdirməklə bütün regionun enerji xəritəsini dəyişəcək. Bu layihə Avropaya qazın nəqlinə alternativ kimi deyil, Avropaya qaz təchizatının şaxələndirilməsi məqsədilə həyata keçirilib. Ümumi kapital qoyuluşu 40 milyard ABŞ dolları olan bu layihə 4 hissədən ibarətdir.

## "Şahdəniz-2"

Layihənin birinci hissəsi - "Şahdəniz-2" fazası üzrə bütün işlər tamamlanıb. Şahdəniz qazı 2500 metr hündürlüyə qalxaraq və dəniz dibindən 800 metr dərinliyə enərək 3500 kilometr məsafə boyunca nəql ediləcək.

## Cənubi Qafqaz Boru Kəməri

Layihənin ikinci hissəsi - Cənubi Qafqaz Boru Kəməri artıq istismara verilib. Azərbaycanı Gürcüstandan keçərək Türkiyə ilə birləşdirən bu kəmərin uzunluğu 691 kilometr təşkil edir.

## Trans-Anadolu Boru Kəməri

Layihənin üçüncü hissəsi - Trans-Anadolu Boru Kəməri (TANAP) Cənubi Qafqaz Boru Kəmərinin davamı olaraq Türkiyə Respublikasının qərb sərhədinə qədər davam etməklə, uzunluğu 1850 kilometr təşkil edir. Azərbaycan qazını Türkiyəyə və Avropaya çatdıran Trans-Anadolu Boru Kəməri Türkiyə-Gürcüstan sərhədində Cənubi Qafqaz Boru Kəmərinə, Türkiyə-Yunanıstan sərhədində isə Trans-Adriatik Boru Kəmərinə (TAP) birləşib.

## Trans-Adriatik Boru Kəməri

Layihənin dördüncü hissəsi - Trans-Adriatik Boru Kəməridir (TAP). Boru kəmərinin uzunluğu 878 kilometrdir. Tikintisinin 90 faizdən çoxunun başa çatdığı bu layihə əsasında qaz kəməri Yunanıstandan Albaniyaya, oradan da Adriatik dənizinin altından keçməklə İtaliyaya çatacaq. 2019-cu il noyabrın 30-da TANAP-ın TAP ilə birləşən hissəsinin açılış mərasimi keçirilib. 2014-cü ildən başlayaraq dünya bazarlarında neftin qiymətinin kəskin aşağı düşməsi ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı istiqamətində aparılan islahatları daha da sürətləndirib. 2016-cı ildə Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri qəbul edilib, struktur və kadr islahatları həyata keçirilib, ölkədə biznes mühitinin yaxşılaşması üçün ciddi addımlar atılıb. Nəticədə, Azərbaycan "Doing Business 2020" hesabatı üzrə dünyada 190 ölkə arasında 34-cü yerdə qərarlaşmaqla, "Kreditin əlçatanlığı" üzrə 1-ci yeri, "Biznesə başlama" üzrə 9-cu yeri, "Müqavilələrin icrası" üzrə isə 28-ci yeri tutub.

Əlavə olaraq, Azərbaycanın Dünya İqtisadi Forumu ilə əməkdaşlığının davamı kimi 2019-cu ildə Azərbaycan ilə Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzi arasında Əməkdaşlıq Razılaşması imzalanıb. Bu Razılaşma dünyada baş verən müsbət trendlərin və qabaqcıl təcrübənin Azərbaycanın sosial-iqtisadi həyatına transformasiyasına imkan yaradacaq. Dünya İqtisadi Forumu ilə fəal və səmərəli əlaqələri yüksək qiymətləndirən Azərbaycan Respublikası bu platformada əməkdaşlığın inkişaf etdirilməsi və daha da irəli aparılması üçün göstərilən səyləri dəstəkləməkdə bundan sonra da davam edəcək.

# Azərbaycan Dünya Birliyi üçün mühüm tərəfdaşa çevrilib

*Prezident İlham Əliyev Davosda bir sıra mühüm görüşlər keçirib*





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Rusiyanın "LUKOIL" şirkətinin prezidenti Vahid Ələkbərov ilə görüşüb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə Azərbaycanın "Naxçıvan", "Qoşadaş" yataqlarının "LUKOIL" şirkəti ilə birgə işlənilməsi məsələsi müzakirə olundu və bu barədə qərar qəbul edildi. Söhbət zamanı perspektiv strukturlar və SOCAR-"LUKOIL" əməkdaşlığı ətrafında fikir mübadiləsi aparıldı.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabarti ilə görüşüb. Görüşdə Azərbaycanda mövcud investisiya mühitinin son dövrlərdə daha da yaxşılaşdığı məmnunluqla vurğulandı, vergi və gömrük sahələrində aparılan uğurlu islahatlar, inzibatçılığın asanlaşması, "ASAN xidmət"in və DOST agentliyinin fəaliyyəti, dövlət tərəfindən göstərilən xidmətlərin rəqəmsallaşdırılması prosesi xüsusi qeyd edildi.

Söhbət zamanı Avropa Yenidənqurma və İnkişaf Bankının ölkəmizdə həyata keçirilən layihələri və prioritet sahələrin müəyyənləşdirilməsi barədə fikir mübadiləsi aparıldı. Bankın Azərbaycanda mövcud əlverişli investisiya mühitindən yararlanaraq fəaliyyətini daha da genişləndirmək üçün böyük imkanlarının olduğu bildirildi.

Yanvarın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlu ilə görüşüb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin uğurlu inkişafından məmnunluq ifadə olundu, əlaqələrimizin bütün sahələrdə genişləndiyi vurğulandı. Söhbət zamanı Azərbaycan və Türkiyə prezidentləri arasında yüksək səviyyəli görüşlərin münasibətlərimizin möhkəmlənməsində rolu qeyd edildi. Azərbaycanla Türkiyənin birgə həyata keçirdiyi qlobal əhəmiyyətli layihələrin önəmi vurğulandı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda "Carlsberg Group" şirkətinin baş icraçı direktoru Cees't Hart ilə görüşüb. Prezident İlham Əliyev ölkəmizdə son illərdə aparılan islahatların artıq müsbət nəticələr verdiyini, bunun xüsusilə şəffaflığın və hesabatlılığın artırılması hesabına vergi və gömrük orqanlarının topladığı büdcə gəlirlərində özünü göstərdiyini qeyd etdi. Dövlətimizin başçısı ölkəmizdə investisiya və biznes mühitinin daha da əlverişli olması istiqamətində islahatların davam etdiriləcəyini, xarici və yerli investorlar üçün vergi, gömrük və digər sahələrdə proqnozlaşdırıla bilən siyasətin həyata keçiriləcəyini vurğuladı.

Görüşə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən "Carlsberg Group" şirkətinin baş icraçı direktoru Cees't Hart dövlətimizin başçısı tərəfindən son illərdə aparılan uğurlu islahatlardan, Azərbaycandakı əlverişli biznes və investisiya şəraitindən məmnunluğunu ifadə etdi, bu tədbirlərin biznes və rəqabət mühitinin sağlamlaşdırılması, həmçinin şəffaflığın artırılması üçün geniş imkanlar yaratdığını vurğuladı. Baş icraçı direktor "Carlsberg Group" olaraq xarici investor kimi bu islahatlara hər zaman dəstək verdiklərini və bu dəstəyin bundan sonra da davam etdiriləcəyini bildirdi. Cees't Hart bu imkanlardan faydalanaraq Azərbaycana investisiya qoyuluşunu artırmaq niyyətində olduqlarını qeyd etdi. O, həmçinin aidiyyəti hökumət qurumları ilə şəffaflığın, hesabatlılığın və mühasibatlılığın daha da yüksək səviyyəyə qalxması üçün əməkdaşlıq etdiklərini söylədi.

*Ardı Səh. 5*



# Azərbaycan Dünya Birliyi üçün mühüm tərəfdaşa çevrilib

*Prezident İlham Əliyev Davosda bir sıra mühüm görüşlər keçirib*





Əvvəli Səh. 4



Söhbət zamanı bildirildi ki, bu ildən başlayaraq "Carlsberg Group" şirkəti kənd təsərrüfatı sektoruna da investisiya qoyuluşunu həyata keçirəcək və bu istiqamətdə artıq pilot layihələrin icrasına başlanılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 21-də Davosda "Signify" şirkətinin baş icraçı direktoru Erik Rondolat ilə görüşü olub. Son vaxtlar Azərbaycanda aparılan islahatlardan məmnunluğunu bildirən Erik Rondolat, ilk növbədə, ölkəmizdə həyata keçirdikləri layihələr barədə dövlətimizin başçısına məlumat verdi. Qeyd etdi ki, aparılan islahatlar Azərbaycanda biznes və investisiya mühitinin yaxşılaşması, ölkəmizdə yeni layihələrin həyata keçirilməsi üçün gözəl zəmin yaradır. "Signify" şirkətinin işıqlandırma sahəsində dünya liderlərindən biri olduğunu vurğulayan baş icraçı direktor rəhbərlik etdiyi qurumun ölkəmizə yeni texnologiyaların gətirilməsi baxımından Azərbaycana hər cür dəstək verməyə hazır olduğunu qeyd etdi. Bildirildi ki, şirkət iqtisadiyyat, o cümlədən kənd təsərrüfatı sahəsində, həmçinin "ağıllı şəhər" layihələrində və internet texnologiyaları ilə işıqlandırma sistemlərinin inteqrasiyası istiqamətində müxtəlif həll variantları təklif edir. Baş icraçı direktor, eyni zamanda, istər kənd təsərrüfatı sahəsində, istərsə də digər sahələrdə işıqlandırma vasitəsilə yeni həll variantlarına investisiya yatırılması imkanlarını Azərbaycanın aidiyyəti qurumları ilə müzakirə etməkdə maraqlı olduqlarını, müvafiq sahədə yeni texnologiyaların ölkəmizə gətirilməsini təmin edə biləcəklərini vurğuladı. Görüşdən məmnunluğunu bildirən Prezident İlham Əliyev Bakı şəhərinin işıqlandırılması üzrə hazırda icra edilən layihənin sürətləndirilməsinin vacibliyini bildirdi. Dövlətimizin başçısı, eyni zamanda, növbəti mərhələlərdə Sumqayıtda və Azərbaycanın digər böyük şəhərlərində işıqlandırmanın keyfiyyətinin artırılması, elektrik enerjisinə əhəmiyyətli qənaəti təmin edən yeni həll variantlarının tətbiqi, həmçinin kənd təsərrüfatının müxtəlif sahələrində işıqlandırma sistemləri vasitəsilə müasir texnologiyaların gətirilməsinin aidiyyəti dövlət qurumları ilə müzakirə olunması barədə müvafiq tapşırıqlarını verdi.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Xorvatiya Respublikasının Baş Naziri Andrey Plenkoviç ilə görüşüb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə Azərbaycan ilə Xorvatiya arasında imzalanan strateji tərəfdaşlıq sənədinə uyğun olaraq münasibətlərin səviyyəsindən məmnunluq ifadə edildi. Söhbət zamanı ölkələrimiz arasında enerji, nəqliyyat, informasiya-kommunikasiya texnologiyaları və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Yanvarın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına işgüzar səfəri başlayıb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Prezident İlham Əliyev yanvarın 20-də Davosda "VTB Bank"ın prezidenti-idarə heyətinin sədri Andrey Kostinlə görüşüb.

Görüşdə "VTB Bank"ın Azərbaycanda uzun müddət uğurlu fəaliyyət göstərdiyi qeyd olundu. Bildirildi ki, Azərbaycan Dövlət Neft Fondu ilə "VTB Bank" arasında səmərəli əməkdaşlıq davam edir. Prezident İlham Əliyev "VTB Bank"ın Azərbaycan iqtisadiyyatının real sektoruna kredit qoyuluşunun artırılmasını təklif etdi.

Andrey Kostin təklifə müsbət yanaşdığını bildirdi və dövlətimizin başçısını əmin etdi ki, "VTB Bank" bu istiqamətdə fəaliyyətini daha da genişləndirəcək. Söhbət zamanı Azərbaycanla Rusiya arasında bütün sahələrdə olduğu kimi, iqtisadi-ticari sahədə də əlaqələrin uğurla inkişaf etdiyi bildirildi. Ticarət dövriyyəsinin artan istiqamətdə davam etməsinin və daha da sürətləndirilməsinin vacibliyi qeyd olundu. Görüşdə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.



Yanvarın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda "Carlyle Group" şirkətinin həmtəsisçisi Devid Rubenşteynlə görüşü olub. Görüşdə "Carlyle Group" şirkətinin həmtəsisçisi Devid Rubenşteyn rəhbərlik etdiyi qurumla Azərbaycan Dövlət Neft Fondu arasında əməkdaşlığı yüksək qiymətləndirdi və bu əməkdaşlığın gələcək istiqamətləri barədə dövlətimizin başçısına məlumat verdi.

Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatının inkişaf etdiyini, ötən il ölkəmizdə qeyri-neft sənayesinin 14 faiz, kənd təsərrüfatının isə 7 faiz artdığını bildirdi. Söhbət zamanı Azərbaycanda əlverişli investisiya mühitinin yaradıldığı qeyd edildi. Ölkəmizlə vəsaitlərin idarə olunması sahəsində dünyanın aparıcı şirkətlərindən biri olan "Carlyle Group" arasında əməkdaşlığın inkişafı üçün geniş imkanların olduğu vurğulandı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda "CISCO" şirkətinin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramerlə görüşüb. Görüşdə "CISCO" şirkəti ilə Azərbaycanın uzun müddətdir müxtəlif sahələrdə əməkdaşlıq etdiyi bildirildi. Qeyd olundu ki, "CISCO" şirkəti hazırda Azərbaycanda prioritet istiqamətlər üzrə layihələr reallaşdırmaqdadır. Bu layihələrin bir çoxunun ilkin mərhələləri artıq həyata keçirilib. Prezident İlham Əliyev "CISCO" şirkətinin Azərbaycan üçün önəmli tərəfdaş olduğunu qeyd etdi. Dövlətimizin başçısı bildirdi ki, bu şirkət üçün Azərbaycanda çox böyük biznes potensialı mövcuddur.

"CISCO" şirkətinin icraçı vitse-prezidenti və baş maliyyə direktoru Kelli Kramer Azərbaycanda gedən inkişaf proseslərini yüksək qiymətləndirdi və şirkətlə ölkəmiz arasında uğurlu təcrübə mübadiləsinin aparıldığını bildirdi. Xanım Kelli Kramer qeyd etdi ki, Azərbaycan "CISCO" şirkəti üçün regionda ən önəmli ölkədir.

# Dünya İqtisadi Forumunun Azərbaycanda regional mərkəzinin yaradılması haqqında niyyət protokolu imzalanıb










***Yanvarın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda Dünya İqtisadi Forumunun prezidenti Borge Brende ilə görüşüb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Dünya İqtisadi Forumunun prezidenti Borge Brende Forumun 50 illik yubileyi münasibətilə tədbirin nüfuzlu qonaqları üçün çox məhdud sayda - cəmi 200 ədəd hazırlanan şokolad dəstinin birini dövlətimizin başçısına hədiyyə etdi.***

Görüşdə Azərbaycan ilə Davos Forumu arasında münasibətlərin tarixi və onun əhəmiyyəti haqqında fikir mübadiləsi aparıldı. Ölkəmizin regionda iqtisadiyyat, nəqliyyat, infrastruktur sahələrində oynadığı rolun vacibliyi vurğulandı. Azərbaycan Prezidenti İlham Əliyevlə Dünya İqtisadi Forumunun prezidenti Borge Brende arasında ötən il imzalanmış memorandumun davamı kimi bu gün imzalanacaq niyyət protokolunun əhəmiyyəti qeyd edildi. Sənədə əsasən Forumun ölkəmizdə afilə edilmiş regional mərkəzi yaradılacaq.

Söhbət zamanı vurğulandı ki, bu cür mərkəzlər çox məhdud sayda ölkələrdə yaradılır və onların əsas məqsədi dördüncü sənaye inqilabının səbəb olduğu çağırış və imkanların həyata keçirilməsidir.

Sonra Dünya İqtisadi Forumunun ölkəmizdə afilə edilmiş regional mərkəzinin yaradılması ilə bağlı niyyət protokolu imzalandı. Sənədi Prezident İlham Əliyev və Forumun prezidenti Borge Brende imzaladılar.

Borge Brende: Təşəkkür edirəm.

Prezident İlham Əliyev: Çox sağ olun. Bu, bizim əlaqələrimizin yeni səhifəsi üçün yaxşı başlanğıcdır.

Borge Brende: Biz, həmçinin bilirik ki, Siz qarşıya hədəf qoyanda onu həyata keçirirsiniz. Düşünürəm ki, Azərbaycan dördüncü sənaye inqilabına ən yaxşı hazır olan ölkələrdən biri olacaq. Prezident İlham Əliyev: Biz çox fəxr edirik ki, Davos Forumu ilə bu mühüm sənədi imzalayan ilk ölkələr arasındayıq. Bu, həqiqətən də bizim əlaqələrimizdə yeni səhifədir. Ümidvaram ki, gələcək keçmiş qədər uğurlu olacaq.

Borge Brende: Təbrik edirəm. Bütün dəstəyinizə görə təşəkkür edirəm.

Prezident İlham Əliyev: Təşəkkür edirəm.

## Birinci vitse-prezident Mehriban Əliyeva: "20 yanvar 1990-cı il Azərbaycanın tarixinə ən faciəli günlərdən biri kimi daxil olub"

***Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində 20 Yanvar faciəsinin 30-cu ildönümü ilə bağlı paylaşım edib.***



AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "20 yanvar 1990-cı il Azərbaycanın tarixinə ən faciəli günlərdən biri kimi daxil olub. 30 il bundan əvvəl xalqımızın qəhrəman oğul və qızları azadlıq və Vətənimizin istiqlaliyyəti uğrunda canlarından keçərək şəhidlik zirvəsinə ucalmışlar. Ümumxalq Hüzn Günündə 20 Yanvar faciəsinin günahsız qurbanlarının əziz xatirəsini ehtiramla yad edir, bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm".

## Türkiyəli politoloq: Azərbaycanda demokratik seçki ənənəsi formalaşıb



Azərbaycan gənc respublika olsa da, demokratik seçki təcrübəsinə sahibdir. Bunu secki-2020.az saytına açıqlamasında Qafqaz Strateji Araşdırmalar Mərkəzinin rəhbəri, türkiyəli politoloq Hasan Oktay bildirib.

Politoloq deyib: "Azərbaycanda seçkilər hər zaman demokratik prinsiplərə uyğun keçirilir. Ümumiyyətlə, dünyada seçkilərin demokratik prinsiplərə uyğun keçirilməsi əhəmiyyətlidir və Azərbaycan bu prinsipləri daim prioritet seçir. Bu baxımdan, Azərbaycanda şəffaf, ədalətli və tam dəqiq seçki keçirmək ənənəsinin formalaşdığını deyə bilərik. Zaman keçdikcə, bu ənənə daha da inkişaf edir. Əminəm ki, Azərbaycan fevralın 9-da keçiriləcək parlament seçkilərində də demokratik ənənələrə sadiqliyini növbəti dəfə nümayiş etdirəcək".

## "Moody's" beynəlxalq reytinq agentliyi Azərbaycandan yazdı

"Azərbaycanın mövcud valyuta ehtiyatları ölkənin 30 aylıq idxalını ödəmək üçün kifayətdir". SİA xəbər verir ki, bu barədə "Moody's" beynəlxalq reytinq agentliyinin MDB üzrə dərc etdiyi yeni hesabatında bildirilir. Sözügedən hesabata əsasən, MDB ölkələrinin əksər mərkəzi bankları valyutalarının məzənnəsinin çevikliyini artırır ki, bu məzənnə bazarda olan tələbi və təklifi əks etdirə bilsin. Azərbaycan isə istisnadır.

Hesabatda o da qeyd edilir ki, əmtəə bazarında tələb və qiymətlərin agentliyin proqnozlarından aşağı olsa, bu, Azərbaycanla yanaşı Qırğızıstan, Qazaxıstan, Rusiya, Tacikistan, Özbəkistan kimi ölkələrə mənfi təsir edə bilər. Xatırladaq ki, Azərbaycanın valyuta ehtiyatları 51 mlrd. ABŞ dollarına yaxındır.

## Milli Məclisə seçkilərlə əlaqədar 112 beynəlxalq müşahidəçi akkreditasiyadan keçib



Milli Məclisə seçkilərlə əlaqədar akkreditasiyadan keçən beynəlxalq müşahidəçilərin sayı açıqlanıb. Secki-2020.az-da yer alan məlumatda deyilir ki, Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov 112 beynəlxalq müşahidəçinin akkreditasiyadan keçdiyini bildirib. O, eyni zamanda, indiyə qədər 30 min 231 yerli müşahidəçinin qeydiyyatdan keçdiyini də diqqətə çatdırıb.

## Mustafa Şəntop: Türkiyə Dağlıq Qarabağ münaqişəsini özünün də çox ciddi problemi hesab edir



Türkiyə Azərbaycanın ən böyük problemi olan Dağlıq Qarabağ münaqişəsini özünün də çox ciddi problemi hesab edir. AZƏRTAC xəbər verir ki, bu fikri Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şəntop parlamentdə 20 Yanvar faciəsinə həsr olunan fotosərginin açılışında deyib. Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərindən danışan sədr bildirib ki, Azərbaycanın sevinci sevincimiz, qüruru qürurumuzdur. Türkiyənin Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə ədalətli həllinə tərəfdar olduğunu vurğulayan parlament sədri qeyd edib ki, ölkəsi bu problemin nizamlanması ilə bağlı Azərbaycanın ortaya qoyduğu səyləri bundan sonra da müdafiə edəcək.

# "Şıxlı" dövlət sərhədindən buraxılış məntəqəsində xidməti fəaliyyətin təşkilinin səviyyəsi yoxlanılıb

*Yanvarın 21-də Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi general-polkovnik Elçin Quliyev və Dövlət Gömrük Komitəsinin sədri gömrük xidməti general-leytenantı Səfər Mehdiyev "Şıxlı" dövlət sərhədindən buraxılış məntəqəsində xidməti fəaliyyətin təşkilinin vəziyyətini yoxlayıblar.*



DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət sərhədindən buraxılış məntəqələrində şəxslərin və nəqliyyat vasitələrinin dövlət sərhədindən buraxılışı prosedurlarının təkmilləşdirilməsi barədə verdiyi tapşırıqların icra vəziyyəti və bu istiqamətdə görülmüş tədbirlərin effektivliyinin dəyərləndirilməsi məqsədilə dövlət sərhədindən keçən şəxslərlə söhbətlər edilib. Son dövrdə dövlət sərhədindən buraxılış məntəqələrinin xidməti fəaliyyətində nəzərəçarpan yeniliklərin səmərəliliyi barədə vətəndaşların fikirləri öyrənilib, təklif və müraciətləri dinlənilib.

Dövlət Sərhəd Xidmətinin və Dövlət Gömrük Komitəsinin rəhbərləri şəxslərin və nəqliyyat vasitələrinin sərhəd və gömrük rəsmiləşdirilməsində şəxsən iştirak edərək bu prosedurların vaxtının maksimal dərəcədə azaldılması və dövlət sərhədinin daha rahat keçilməsi üzrə mümkün tədbirlər barədə fikir mübadiləsi aparıb, vətəndaşların və nəqliyyat vasitələrinin dövlət sərhədindən daha sürətli keçidinin təmin edilməsi məqsədilə rejim zonasının daxilində infrastrukturun daha da təkmilləşdirilməsi ilə bağlı tapşırıqlar veriblər.

Səfər çərçivəsində general-polkovnik Elçin Quliyev və gömrük xidməti general-leytenantı Səfər Mehdiyevin rəhbərliyi ilə xidməti müşavirə keçirilib. Müşavirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət sərhədindən keçən şəxslərin hüquqlarının ən yüksək səviyyədə qorunması ilə bağlı verdiyi tapşırıq və göstərişlərin icrası üzrə hər iki qurumun üzərinə düşən vəzifələr, o cümlədən sərhəd və gömrük təhlükəsizliyinin gücləndirilməsi ilə yanaşı, dövlət sərhədindən keçən şəxslərin yoxlanılmasına mümkün qədər az vaxt sərf edilməsinin üsul və metodları haqqında geniş fikir mübadiləsi aparılıb.




"Şıxlı" dövlət sərhədindən buraxılış məntəqəsindəki mövcud vəziyyət, Dövlət Sərhəd Xidmətinin və Dövlət Gömrük Komitəsinin yerli bölmələrinin qarşılıqlı fəaliyyətinin tənzimlənməsi məsələləri müzakirə edilib və vəzifəli şəxslərin məruzələri dinlənilib.

Son zamanlar sərnişin və yükdaşımaların həcminin əhəmiyyətli dərəcədə artması nəzərə alınaraq, dövlət sərhədindən buraxılış məntəqələrində xidməti fəaliyyətin daha da optimallaşdırılması, o cümlədən dövlət sərhədindən keçən şəxslər, nəqliyyat vasitələri və yüklər üzərində sərhəd və gömrük nəzarətinin daha səmərəli təşkilinə dair təkliflər nəzərdən keçirilib. Şəxslərin və nəqliyyat vasitələrinin dövlət sərhədindən hərəkətinin daha da asanlaşdırılması, rejim zonasının yaxınlığındakı infrastrukturun yaxşılaşdırılması məqsədilə "Şıxlı" dövlət sərhədindən buraxılış məntəqəsinin qarşısındakı ərazinin abadlaşdırılması və səliqəyə salınması məsələləri Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov ilə müzakirə olunub.

# Elçin Quliyev: İranla dövlət sərhədində yeni buraxılış məntəqələrinin fəaliyyəti məsələləri müzakirə olunur

2020-ci ildə qarşıda bir sıra məqsədlərimiz var. Avtomobil yolunun, yeni dəmiryolunun açılışı, yeni körpünün inşa olunması - bunlar xidməti əlaqələrin inkişafının təzahürüdür. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu barədə Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi, general-polkovnik Elçin Quliyev Astarada jurnalistlərə verdiyi müsahibəsində məlumat verib. DSX-nin rəisi daha sonra deyib: "2018-ci illə müqayisədə ötən ildə dövlət sərhəd buraxılış məntəqəsində həm vətəndaşların, həm də nəqliyyat vasitələrinin keçidində artım olub. Dövlət sərhədindən keçən şəxslərin sayı 21,5 faiz, nəqliyyat vasitələrinin sayı isə 13 faiz artıb".



E.Quliyev qeyd edib ki, İran İslam Respublikasının Sərhəd Qoşunlarının komandanı ilə dövlət sərhədində yeni buraxılış məntəqələrinin fəaliyyətə başlaması məsələləri müzakirə olunur. Bu məsələ, həm də hökumətlər arasında müzakirə obyektidir. Sərhədyanı digər əlaqələrin qurulması, inkişaf etdirilməsi bu gün gündəlikdədir. "Bütün bunlar ölkələrimiz arasında olan xoş münasibətin təzahürü, göstəricisidir. Prezident İlham Əliyev daim Azərbaycan-İran əlaqələrinin sərhəd mühafizəsi istiqamətində inkişafına dair göstərişlər verir. Biz də çalışırıq ki, dövlətimizin başçısının bu tapşırıqlarının ən yüksək səviyyədə icrasını təmin edək", - deyə E.Quliyev vurğulayıb.

# Azərbaycan və Gürcüstan həm ikitərəfli, həm də üçtərəfli formatlarda səmərəli əməkdaşlıq edir

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Gürcüstanın Müdafiə naziri İrakli Qaribaşvili yanvarın 21-də Tbilisidə keçirilən görüşdən sonra mətbuata bəyanatla çıxış ediblər. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, İrakli Qaribaşvili görüşün əhəmiyyətini qeyd edərək, Gürcüstanın ərazi bütövlüyünün təmin olunmasında göstərdiyi dəstəyə görə ölkəsinin adından Azərbaycan tərəfinə minnətdarlığını bildirib. O deyib ki, Gürcüstan ikitərəfli münasibətlərin inkişafına xüsusi diqqət yetirir. Azərbaycan ilə Gürcüstan arasında 2020-ci ildə hərbi sahədə əməkdaşlığa dair fəaliyyət planının imzalanması bu istiqamətdə əlaqələrimizin inkişafına mühüm töhfə verəcək.



Gürcüstanın Müdafiə naziri ölkələrimiz arasında mövcud dostluq münasibətlərinin 2020-ci ildə daha da inkişaf edəcəyinə əminliyini bildirib. Azərbaycanın Müdafiə naziri, general-polkovnik Zakir Həsənov yüksək qonaqpərvərliyə görə minnətdarlığını ifadə edərək, ölkələrimiz və xalqlarımız arasında mehriban qonşuluq və yaxın dostluq münasibətlərinin önəminə toxunub. Görüşdə regionda hərbi-siyasi vəziyyətin müzakirə olunduğunu vurğulayan general-polkovnik Zakir Həsənov bildirib ki, Azərbaycan Gürcüstanın ərazi bütövlüyünü tam dəstəkləyir. Biz də bütün beynəlxalq təşkilatlarda həmin dəstəyi Gürcüstan tərəfindən görürük.

Azərbaycanın və Gürcüstanın regionda böyük əhəmiyyətə malik birgə layihələr həyata keçirdiklərini deyən nazir diqqətə çatdırıb ki, ölkələrimiz arasında siyasi, iqtisadi, hərbi və digər sahələrdə əməkdaşlıq uğurla inkişaf edir: "Biz hərbi sahədə həm ikitərəfli, həm də üçtərəfli - Azərbaycan-Gürcüstan-Türkiyə formatlarında səmərəli əməkdaşlıq edirik. Söhbət zamanı regiondakı böyük iqtisadi layihələri və onların təhlükəsizliyinin təmin olunması məsələlərini də nəzərdən keçirdik".

# ABŞ Konqresinin daha bir üzvü 20 Yanvar faciəsinin 30 illiyi ilə bağlı bəyanat verib

20 Yanvar faciəsinin 30 illiyi ilə əlaqədar ABŞ Konqresində növbəti bəyanat verilib. ABŞ Konqresinin Xarici məsələlər komitəsinin üzvü Robert Aderholt faciə ilə bağlı bəyanatla çıxış edib. Bəyanatda bildirilir ki, bu ay bizim dostumuz və müttəfiqimiz Azərbaycan Respublikası Qara Yanvar hadisəsinin 30 illiyini qeyd edir. Bu hadisə XX əsr ərzində davam etmiş işğalın, yeni, Azərbaycan üzərində sovet idarəçiliyinin sonunun başlanğıcı kimi simvolizə olunur. Bəyanatda, həmçinin məlumat verilir ki, 19-20 yanvar 1990-cı il tarixində Azərbaycanın paytaxtı Bakı şəhərində zorakılıq zamanı sovet ordusu 100-dən çox azərbaycanlı nümayişçini qətlə yetirib, 700 nəfər yaralanıb. Sovet hərbçilərinin zorakılığına baxmayaraq, Azərbaycan əhalisi dinc etirazını 1991-ci il 18 oktyabr tarixində SSRİ-dən müstəqilliyini elan edənə qədər davam etdirib. Konqresmen bəyanatında həmkarlarına səslənərək Azərbaycanda Qara Yanvar faciəsinin və azadlıq uğrunda canlarından keçmiş insanların xatirəsinin yad edilməsinə çağırıb, ABŞ-ın müttəfiq və tərəfdaşı Azərbaycanın yanında olduğunu vurğulayıb.



# Lev Spivak: Əminəm ki, formalaşacaq parlament ölkədəki yeniliklərə uyğun olacaq

"Bu gün Azərbaycanda gənc və təhsilli kadrlar dövlət idarəçiliyinə cəlb olunur. Bu, ölkənin daha da inkişafı üçün çox əhəmiyyətlidir. Əminəm ki, formalaşacaq parlament də ölkədəki yeniliklərə uyğun olacaq." Bunu secki-2020.az saytına açıqlamasında İsrail-Azərbaycan AzİZ Beynəlxalq Assosiasiyasının baş direktoru Lev Spivak deyib.



Baş direktor bildirib ki, deputatlığa namizədlər arasında kifayət qədər bacarıqlı və intellektli insanlar var. "Mən iki dəfə Azərbaycanda seçkilərdə müşahidəçi qismində iştirak etmişəm. Hər iki seçki yüksək səviyyədə keçirilib. Mənimlə birlikdə seçkiləri izləyən Knesset deputatları da seçkilərin texniki təchizatı və səviyyəsindən razı qalıblar. Əminəm ki, bu parlament seçkiləri də ən yüksək səviyyədə keçiriləcək", - deyə L.Spivak bildirib.

# Türkiyə KİV-ləri 20 Yanvar faciəsi ilə bağlı materiallar yayıb

İyirmi Yanvar faciəsinin 30-cu ildönümü ilə əlaqədar Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahimin aparıcı KİV-lərdə müsahibə və məqalələri yayılıb. AZƏRTAC xəbər verir ki, Anadolu Agentliyi, "TRT HABER" kanalı, "Yeni akıt", "Milliyyet", "Sabah" qəzetlərində və digər kanallarda, qəzet və saytlarda yayılan materiallarda 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Azərbaycan xalqına qarşı törətdiyi hərbi cinayətin səbəb və nəticələrindən bəhs olunur. Səfir 20 Yanvar hadisələrinin müstəqilliyə aparan yol olduğunu vurğulayıb. Diplomat, həmçinin Azərbaycanda gedən inkişaf prosesləri, ölkəmizin beynəlxalq aləmdəki mövqeyi və s. məsələlər barədə də məlumat verib.



# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

## *Bu şüarla Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat-təşviqat kampaniyasına start verib*

### YASAMAL

Dünən 17 saylı Yasamal 3-cü Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Elnur Allahverdiyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Yasamal rayonu seçiciləri ilə növbəti görüşü keçirildi.

Görüşü giriş sözü ilə YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov açaraq, Azərbaycanın dinamik inkişafına, həyata keçirilən layihə və islahatlara nəzər salaraq, ölkəmizdə insanların rifahının yüksəldilməsi, yaşayış səviyyəsinin dəyişdirilməsi, bütövlükdə və həyat tərzinin yeniləşdirilməsi istiqamətində görülən işləri diqqəti çəkdi: "Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həm iqtisadiyyatın, həm də sosial həyatımızın inkişafı ilə yanaşı, Azərbaycanın siması dəyişdirilmiş, bütövlükdə, ölkəmizin müasirləşməsi və modernləşməsini ehtiva olunur."

Azərbaycanda son illərdə keçirilən seçkilərin demokratik prinsiplər əsasında həyata keçirildiyini bildirən rayon təşkilatı sədri qeyd etdi ki, dövlət tərəfindən görülən işlərin nəticəsi olaraq, seçicilər bu proseslərdə fəal iştirak edərək layiqli namizədlərinə səs verirlər. Azərbaycanda keçirilən seçkilərin şəffaflığı müstəqil dövlətimizin inkişafına təsirini göstərir. Artıq keçirilən seçkilər zamanı əldə olunan nailiyyətlər və təcrübə bizə bu fikirləri söyləməyə əsas verir.






O, 9 fevral tarixində keçiriləcək parlament seçkilərində seçiciləri partiyanın namizədinə səs verməyə çağırdı.

Görüşdə Elnur Allahverdiyev çıxış edərək, öz platforması ətrafında seçicilərə geniş məlumat verdi. Qeyd etdi ki, ona göstərilən bu etimad, onu daha məsuliyyətli olmağa sövq edir. Bu məsuliyyətli və çətin yolda ona göstərilən etimadı doğrultmaq üçün daha səylə çalışacağına əminliyini bildirdi.

Görüşdə çıxış edən seçicilər - Arzu Haqverdiyeva, Sevda Quliyeva, Ramiz Quliyev və başqaları namizədə uğurlar arzulayaraq, seçiciləri YAP-ın layiqli namizədinə səs verməyə çağırıblar.

Görüşün sonunda seçiciləri maraqlandırılan suallar cavablandırılıb.

### İSMAYILLI

Fevralın 9-da Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək seçkilərin təbliğat-təşviqat kampaniyasına YAP İsmayıllı rayon təşkilatı uğurla davam edir.

Seçkilərlə əlaqədar Yeni Azərbaycan Partiyasının 86 saylı İsmayıllı Seçki Dairəsi üzrə deputatlığa namizədi Zaur Muradovun təbliğat-təşviqat kampaniyası çərçivəsində görüşü keçirilib. Tədbiri giriş sözü ilə açan YAP İsmayıllı rayon təşkilatının sədri Sevil Əhmədova əvvəlcə ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi kursun möhtəşəm nəticələri barədə geniş məlumat verib. S.Əhmədova qeyd edib ki, Azərbaycan son illərdə böyük nailiyyətlər qazanaraq, bu gün dünyanın qabaqcıl ölkələri ilə bir sırada dayanır, beynəlxalq ictimaiyyət tərəfindən müstəqil, güclü və qüdrətli dövlət kimi qəbul olunur. Natiq daha sonra sonra 86 saylı İsmayıllı Seçki Dairəsindən deputatlığa namizəd Zaur Muradov barədə məlumat verib.





Seçicilər qarşısında çıxış edən Zaur Muradov YAP-ın bu seçkilərə "Daha güclü Azərbaycan naminə" şüarı ilə qatıldığını bildirərək seçicilərin etimadını qazanaraq, millət vəkili seçiləcəyi təqdirdə, bu etimadı doğrultmaq üçün çalışacağını bildirib.

Görüşdə çıxış edənlər Zaur Muradovun savadlı, intellektli, yüksək idarəetmə qabiliyyətinə malik bir şəxs olduğunu, onu çox yaxşı tanıdıqlarını və bu seçimin Yeni Azərbaycan Partiyası tərəfindən çox düzgün bir qərar olduğunu qeyd ediblər. Görüşdə çıxış edənlər onların hər birinin partiyanın təbliğatçısı olduqlarını və seçki günü Azərbaycanı sabitlik adasına çevirən ölkə Prezidenti İlham Əliyevin Sədri olduğu, seçkilərə "Daha güclü Azərbaycan naminə" şüarı ilə gedən Yeni Azərbaycan Partiyasının irəli sürdüyü namizədi Zaur Muradova səs verəcəklərini bəyan ediblər.

Görüşün sonunda görüş iştirakçılarının xahişi ilə xatirə şəkilləri çəkdirilib.

### SURAXANI

30 saylı Suraxanı I Seçki Dairəsindən Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Fətəliyeva Sevinc Həbib qızının Hövsan seçiciləri ilə təbliğat-təşviqat kampaniyası çərçivəsində ilk görüşü keçirilib. Qeyd edək ki, namizədlə görüşdə 135 nəfər Hövsan qəsəbəsi Rüfət Abdullayev 5A, 5B, 1, 3 məhəllənin sakinləri olan seçicilər iştirak edib.

Giriş nitqi ilə çıxış edən təbliğat qrupunun üzvü Rəşid Məmmədov ölkəmizdə son illərdə aparılan islahatlardan bəhs edib.

Daha sonra çıxış edən deputatlığa namizəd Sevinc Fətəliyeva növbəti dəfə ona göstəriləcək etimadı yenidən doğruldacağına və qarşıda duran məsələlərlə bağlı Hövsan sakinlərinin səsinə səs olacağını bildirib.

Görüşdə iştirak edən qəsəbə sakinlərindən Nəriman Quliyev, Həmidov, qəsəbə ağbirçəyi Şövkət Xanməmmədova, Zərifə Lətifova parlament seçkilərində YAP-ın namizədinə səs verəcəklərini bildirərək, namizədə uğurlar diləyiblər.

Görüş zamanı Sevinc Fətəliyeva sakinlər tərəfindən səsləndirilmiş müraciətlərə münasibət bildirərək, onları narahat edən problemlərlə bağlı aidiyyəti üzrə qurumlar qarşısında məsələ qaldıracağını qeyd edib.

Qeyd edib ki, 30 saylı Suraxanı I Seçki Dairəsi üzrə seçici sayı 36947 nəfərdir.

### NƏSİMİ

Dünən Yeni Azərbaycan Partiyasının Qərargahında fevralın 9-da Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək parlament seçkilərdə "Daha güclü Azərbaycan naminə" devizi altında təbliğat-təşviqat kampaniyası çərçivəsində Nəsimi rayonunun qadın ictimaiyyəti ilə ilk görüş keçirilib.





Tədbirdə YAP-ın vahid siyahı üzrə namizədləri 21 saylı Nəsimi Birinci Seçki Dairəsindən namizəd Məlahət İbrahimqızı, 22 saylı Nəsimi İkinci Seçki Dairəsi üzrə deputatlığa namizəd Sərraf Hüseynov, 23 saylı Nəsimi-Səbail Seçki Dairəsi üzrə deputatlığa namizəd Elnur Rəhimov iştirak edirdi.

Tədbiri giriş sözü ilə açan YAP Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı rayon təşkilatı tərəfindən görülən işlər barədə məlumat verib, qarşıdan gələn parlament seçkilərinin əhəmiyyətindən danışıb, eyni zamanda, Prezident İlham Əliyev tərəfindən bütün sahələrdə həyata keçirilən uğurlu siyasətin nəticəsi olaraq, qadınların idarəetmə orqanlarında və seçki proseslərindəki iştirakının durmadan artmaqda olduğunu qeyd edib.

M.İbrahimqızı milli qanunvericilikdə qadın hüquqları sahəsində qəbul olunmuş qanunlardan və ratifikasiya olunmuş beynəlxalq sənədlərdən danışıb.

Görüşdə 22 saylı Nəsimi İkinci Seçki Dairəsi üzrə depu-

# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

## Bu şüarla Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat-təşviqat kampaniyasına start verib





qızı, 22 saylı Nəsimi İkinci Seçki Dairəsi üzrə deputatlığa namizəd Sərraf Hüseynov, 23 saylı Nəsimi-Səbail Seçki Dairəsi üzrə deputatlığa namizəd Elnur Rəhimov iştirak edirdi.

Tədbiri giriş sözü ilə açan YAP Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı rayon təşkilatı tərəfindən görülən işlər barədə məlumat verib, qarşıdan gələn parlament seçkilərinin əhəmiyyətindən danışıb, eyni zamanda, Prezident İlham Əliyev tərəfindən bütün sahələrdə həyata keçirilən uğurlu siyasətin nəticəsi olaraq, qadınların idarəetmə orqanlarında və seçki proseslərindəki iştirakının durmadan artmaqda olduğunu qeyd edib.

M.İbrahimqızı milli qanunvericilikdə qadın hüquqları sahəsində qəbul olunmuş qanunlardan və ratifikasiya olunmuş beynəlxalq sənədlərdən danışıb.

Görüşdə 22 saylı Nəsimi İkinci Seçki Dairəsi üzrə deputatlığa namizəd Sərraf Hüseynov müasir müstəqil Azərbaycan dövlətinin Qurucusu Ümummilli Lider Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrlərdə Azərbaycan qadınına yüksək qiymət verilməsindən danışıb. Qeyd edib ki, Ulu Öndərin siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə elə bir sahə yoxdur ki, orada qadınlar çalışmasın. Bu gün qadınlar öz vətəndaş mövqeyi, qadın hünəri ilə kişilərlə çiyin-çiyinə əmək fəaliyyətlərini davam etdirirlər. Azərbaycan qadınları tükənməz enerji və məhəbbətlə ömürlərinin şərəfli səhifələrini yaşamaqla bərabər, cəmiyyətdəki aktual problemlərin həllindən də kənarda qalmırlar. Hazırda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, ölkənin Birinci Xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə ailələrin rifahına yönəldilmiş neçə-neçə uğurlu layihələr həyata keçirilməkdədir.

Sonra 23 saylı Nəsimi-Səbail Seçki Dairəsi üzrə deputatlığa namizəd Elnur Rəhimov çıxış edərək, respublikamızda dövlət-qadın siyasəti, Ulu Öndər Heydər Əliyevin bu istiqamətdə əsasını qoyduğu ənənələrin ölkə Prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini, bunun nəticəsi olaraq, fevralın 9-da keçiriləcək Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə layiqli qadın namizədlərin sayının kifayət qədər çox olduğunu deyib.

Qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi şəraitində davam edən tədbirdə çıxış edən dövlətə və dövlətçiliyə sadiq olan Nəsimi rayon qadınları Azərbaycanın daha da inkişafı naminə partiyanın namizədlərinə səs verəcəklərini ifadə ediblər.

### AĞCABƏDİ

9 fevral 2020-ci il tarixdə Milli Məclisə keçiriləcək seçkilərlə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində deputatlığa namizədlərlə görüşlər davam edir. Növbəti görüş 83 saylı Ağcabədi-Füzuli Seçki Dairəsi üzrə Ağcabədi rayonunun ərazisinə daxil olan Boyat, Qaraxanlı və Hacılar kəndlərində keçirilmişdir.

Görüşləri YAP Ağcabədi rayon təşkilatının Seçki Qərar-





gahının üzvü Nazim Bünyatov açaraq, deputatlığa namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş Rəşad Rəhimovu seçicilərə təqdim etmişdir.

Deputatlığa namizəd Rəşad Rəhimov çıxış edərək, seçiciləri Yeni Azərbaycan Partiyasının Seçki Proqramı ilə tanış etmiş, partiyanın “Daha güclü Azərbaycan naminə” şüarı ilə seçkilərə qatıldığını bildirmiş, son illər Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin həyata keçirdiyi uğurlu islahatlar nəticəsində, ölkədə böyük inkişafa nail olunduğunu, lakin görüləsi işlərin də mövcud olduğunu qeyd etmişdir. Ona görə də, YAP növbəti parlament seçkilərinə “Daha güclü Azərbaycan naminə” devizi ilə qatılır və qarşıda duran hədəflərə nail olmaq üçün partiyanın əsaslanmış proqramı vardır. Sonra əmək fəaliyyətləri barədə məlumat vermiş, öz platforması ilə seçiciləri tanış etmişdir.

Boyat kəndində seçicilərdən Fəxrəddin Kərimov, Qaraxanlı kəndində Aygün Bəşirova, Xəlil Sadıqov, Hacılar kəndində Ağamalı Abbasov, Ceyhun Abbasov, Aidə Cahangirova çıxış edərək namizədin platformasını bəyəndiklərini bildirmiş, seçki günü seçki məntəqələrinə gələrək, seçim etdikləri namizədə səs verəcəklərini bildiriblər.

### YASAMAL

15 saylı Yasamal Birinci Seçki Dairəsindən Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Rauf Nağıyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayon



seçiciləri ilə görüşü keçirildi. Görüşü Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov açaraq, ölkə Prezidenti İlham Əliyevin respublikamızda həyata keçirdiyi uğurlu daxili və xarici siyasətdən, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Azərbaycanda həyata keçirdiyi layihələrdən, ölkəmizlə bağlı həqiqətlərin dünyada təbliği, xalqımızın maddi-mənəvi dəyərlərinin qorunub-saxlanılması, dünya xalqlarının mədəniyyətlərinə inteqrasiyası istiqamətində gördüyü işlərdən danışdı.

Azərbaycanın bugünkü uğurlarından danışan rayon təşkilatı sədri daha intellektual, savadlı, elmi biliklərə malik olan ziyalıların irəli çəkilməsinin əhəmiyyətini qeyd etdi. Bildirdi ki, namizədliyi irəli sürülən R.Nağıyev öz bacarığı və elmi uğurları ilə seçilən ziyalılardandır. Sədr onun keçdiyi yola nəzər salaraq, seçiciləri R.Nağıyevə səs verməyə çağırdı.

Görüşdə çıxış edən R.Nağıyev öz platforması ilə seçiciləri tanış edərək, ona etimad göstərilərsə, bu inamı əməli fəaliyyəti ilə doğruldacağını bildirdi.

YAP Yasamal rayon təşkilatının sədr müavini Telman İbadov seçiciləri YAP-ın namizədinə səs verməyə çağırdı.

Çıxış edən seçicilər Fikrət Zeynalov, Süsən Əliyeva və başqaları 9 fevralda keçiriləcək parlament seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Rauf Nağıyevə səs verəcəklərini bildirdilər.

Sonra R.Nağıyev seçiciləri maraqlandıran suallara ətraflı cavab verdi.

### QUSAR

YAP Qusar rayon təşkilatında 51 saylı Qusar seçki dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Azər Badamovun təbliğat-təşviqat kampaniyası çərçivəsində Qarabağ qaziləri və şəhid ailələri ilə görüş keçirilib.

Görüşü YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov açaraq, bu gün, nəinki Azərbaycanın, bütövlükdə, regionun ən böyük və mütəşəkkil partiyası olan YAP-ın uğurlarının əsasında xalq sevgisinin və dəstəyinin dayandığını bildirib. Məhz bu dəstəyin nəticəsində, partiya yarandığı tarixdən bu günə qədər, ölkəmizdə keçirilən bütün siyasi kampaniyalarda və seçki proseslərində qalib gəlib. Rayon təşkilatı sədri fevralın 9-da keçiriləcək parlament seçkilərində də YAP-ın namizədlərinin inamlı qələbə qazanacağına əminliyini bildirib. O, seçiciləri YAP-ın namizədi Azər Badamova səs verməyə çağırıb.

Ardı Səh. 10

# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

## Bu şüarla Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasına start verib

Əvvəli Səh. 9

Görüşdə deputatlığa namizəd Azər Badamov çıxış edərək, öz platforması haqqında məlumat verib. Ölkəmizdə demokratik, azad və şəffaf seçkilərin keçirilməsi üçün bütün imkanların mövcud olduğunu bildirərək, bu gün seçki qanunvericiliyi çərçivəsində parlament seçkiləri kampaniyasının uğurla davam etdiyin diqqətə çatdırıb. Seçkilərdə partiyanın qələbə qazanacağına əminliyini bildirib: “YAP qalib gəlsə, ölkəmiz daha da güclənəcək, əhalinin rifah halı daha da yüksələcək”.





Tədbirdə iştirak edən rayon təşkilatının sədr müavini Nadirşah Şirinov, Azərbaycan Milli Qəhrəmanı Çingiz Qurbanovun atası Salman Qurbanov, Qarabağ veteranı Canəli Hörmətov və başqaları seçiciləri Azər Badamova səs verməyə çağırıblar.

### ASTARA

Yeni Azərbaycan Partiyasının 76 saylı Lənkəran-Astara Seçki Dairəsi üzrə namizəd Ziyafət Əsgərov Astara rayonun Kakalos kəndində seçicilərlə görüş keçirib. Görüşdə çıxış edən deputatlığa namizəd Ziyafət Əsgərov növbəti illər üçün Milli Məclisə üzv seçilərsə, görəcəyi işlərdən rayon üçün inkişaf praqramının həyata keçməsi ilə bağlı daim çalışacağını bildirib.





### QARADAĞ

Dünən YAP tərəfindən deputatlığa namizədliyi 11 saylı Qaradağ seçki dairəsindən irəli sürülmüş partiyanın Qaradağ rayon təşkilatının sədri Aydın Hüseynovun seçicilərlə görüşü Qızıldaş qəsəbəsində keçirilib. Görüşdə qəsəbə sakinlərinə partiyanın seçki platforması barədə məlumat verib. Bildirib ki, YAP yarandığı vaxtdan bu günə qədər müstəqilliyimizin qorunması, xalqımızın sosial rifah halının yaxşılaşdırılması, ölkəmizin bütün sahələr üzrə dinamik inkişafı və dünya birliyində rolunun genişlənməsi istiqamətində son dərəcə böyük işlər görüb və bu siyasətini uğurla davam etdirir. Məhz bu səbəbdən də, Azərbaycan inkişaf etməkdə olan ölkələrdən biri kimi yetərincə tanınır. Sevindirici haldır





ki, beynəlxalq təşkilatların açıqlamaları da bunu bir daha təsdiqləyir.

A.Hüseynov bildirib ki, Yeni Azərbaycan Partiyası ölkənin ən güclü və aparıcı siyasi təşkilatı olduğunu ölkədə keçirilən bütün seçkilərdə qazandığı parlaq qələbələrlə sübut edib: “Yeni Azərbaycan Partiyası qarşıdan gələn 9 fevral parlament seçkilərində, məhz “Daha güclü Azərbaycan naminə!” şüarı ilə iştirak edir. Ölkənin sosial-iqtisadi qüdrətinin artması, milli dövlətçiliyimizin möhkəmlənməsi Yeni Azərbaycan Partiyasının başlıca amalı və əsas hədəfidir. Parlamentdə çoxluq təşkil edən partiya kimi, mütərəqqi, humanist qanunların qəbulunda, milli qanunvericiliyimizin təkmilləşdirilməsində və inkişaf etdirilməsində Yeni Azərbaycan Partiyasının rolu çox böyükdür. Hər bir vətənpərvər insan bu inkişafı tam reallığı ilə görünür və daim yüksək qiymətləndirir”.

Qəsəbə sakini, şəhid ailəsi Nərgiz Nəzərova dövlət qayğısından məmnunluğunu bildirərək həyat yoldaşının vətən, xalq, dövlət və torpaq yolunda şəhid olmasından qürur duyduğunu vurğulayıb: “Hər bir vətəndaşa, o cümlədən, imtiyazlı şəxslərə son dərəcə yüksək qayğı və diqqətin göstərilməsi ölkə Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın əvəzsiz zəhmətinin bəhrəsidir. Bu səbəbdən də, hər birimiz dövlət başçısının ətrafında sıx birləşməli və dövlət siyasətinə konkret işimizlə cavab verməliyik”.

Çıxış edənlər yekdilliklə bildirdilər ki, Qaradağda seçicilər Yeni Azərbaycan Partiyasının namizədləri ilə görüşlərə böyük maraq göstərir, partiyanın namizədlərinin keçirdiyi görüşlərə fəal şəkildə qatılırlar. Bu seçkilərdə də qələbə qazanacaq əksər Yeni Azərbaycan Partiyası namizədləri sırasında Aydın Hüseynovun da olacağına inandıqlarını bildirdilər.

### PİRALLAHI

VI çağırış Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin təbliğat kampaniyası çərçivəsində 13 saylı Xəzər-Pirallahı Seçki Dairəsindən namizədliyi irəli sürülmüş Əliyev Rauf Asif oğlunun Pirallahı qəsəbəsində ağsaqqal və ziyalı seçiciləri ilə görüşü keçirildi. Görüşdə çıxış edən Piral-





lahı rayon Ağsaqqallar Şurasının sədri Fazil Məhəmmədov, ağsaqqallar Bəhram Qədirli, Yaqub Hüseynov, Fariz Məhəmmədov, Tarıverdi Bünyatov rayonun ağsaqqalları, ziyalıları ilə görüşməsinə, ağsaqqal xeyir-duasına və ziyalı sözünə böyük əhəmiyyət verməsinə görə deputatlığa namizəd Rauf Əliyevə dərin təşəkkürlərini bildirdilər. Həmçinin, tədbir iştirakçıları sadəliyi və səmimiliyi ilə Pirallahı sakinlərinin rəğbətini qazanan Rauf Əliyevin ölkənin ictimai-siyasi həyatındakı fəaliyyətini yüksək qiymətləndirdiklərini vurğulayaraq, dəfələrlə III,IV,V çağırış Milli Məclisin iclaslarında Pirallahı sakinlərinin problemlərinin həlli istiqamətində əlindən gələni etməyə çalışdığının şahidi olduqlarını diqqətə çatdırıb, birmənalı olaraq, “Daha güclü Azərbaycan naminə” şüarı ilə gedən Yeni Azərbaycan Partiyasının yenidən irəli sürdüyü namizəd - Rauf Asif oğlu Əliyevə səs verəcəklərini bəyan etdilər.

Rauf Əliyev ona göstərilən etimada görə Yeni Azərbaycan Partiyasına, partiyanın Sədri, ölkə Prezidenti İlham Əliyevə dərin minnətdarlığını bildirərək, böyük sözünə, ağsaqqal xeyir-duasına hər zaman böyük dəyər verdiyini Pirallahı rayonunun tarixində ağsaqqalların və veteranların xüsusi rolu olduğunu, onların dəyərli tövsiyələrinin gənclərin inkişafında mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Pirallahı rayon Ağsaqqallar Şurasının üzvləri Aşur Məmmədov və Qabil Şirinov mövcud problemlərin həlli ilə bağlı Rauf Əliyevdən köməklik göstərilməsini xahiş etdilər. Deputatlığa namizəd Rauf Əliyev ağsaqqalların xeyir-duasını alaraq, çıxdığı bu şərəfli və məsuliyyətli yolda dövlətimizin qarşıya qoyduğu vəzifələrin xalqın və cəmiyyətin istəyinə uyğun layiqincə yerinə yetirməyə çalışacağını bildirdi. Görüşdə Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov iştirak etmişdir.

### CƏLİLABAD

YAP tərəfindən 67 saylı Cəlilabad şəhər Seçki Dairəsindən deputatlığa namizədi Malik Əvəz oğlu Həsənov seçicilərə ilk görüşü yanvarın 18-də rayonun Maşlıq kəndində şəhid ailələri, Tahirli kəndində isə əlil ailələrlə görüşü olub.

Ardı Səh. 11

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Bu şüarla Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasına start verib*

Əvvəli-Səh-10

Görüşdə YAP Cəlilabad rayon təşkilatının sədri Mirsüleyman Mirxaslı çıxış edərək, ölkəmizdə baş verən inkişaf, həyata keçirilən siyasətin müxtəlif sahələri üzrə uğurları, YAP-ın regionun və Azərbaycanın ən böyük siyasi təşkilatı olaraq, bu inkişaf prosesinə töhfələri, qarşıdan gələn parlament seçkilərinin ölkəmizin demokratik inkişafı yolunda əhəmiyyəti barədə danışıb, seçicilərə YAP-ın 67 saylı Cəlilabad şəhər Seçki Dairəsindən deputatlığa namizədi Malik Əvəz oğlu Həsənovun fəaliyyəti haqqında məlumat verib və cəlilabadlıların, birmənalı olaraq, Yeni Azərbaycan Partiyasının irəli sürmüş olduğu namizədə dəstək olacaqlarını əminliklə söyləyib.

Tədbirdə çıxış edən namizədin vəkili Cahangir Muradov rayonda yeni yolların çəkilişi, tikinti-quruculuq və abadlıq işlərin görülməsində Yeni Azərbaycan Partiyasının namizədi Malik Həsənovun da xidmətləri olduğunu bildirib və bütün seçiciləri qarşıdan gələn parlament seçkilərində Malik Həsənova səs verməyə çağırıb.

Görüşlərdə çıxış edən Yeni Azərbaycan Partiyasının 67 saylı Cəlilabad şəhər Seçki Dairəsi üzrə namizədi Malik Həsənov Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə son illər həyata keçirilən uğurlu inqilabi islahatların aparılmasının ölkəmizin ildən-ilə qüdrətinin artmasına, regionların sosial-iqtisadi inkişafının daha yüksək səviyyədə ol-





masına imkan yaranması ilə bağlı məlumat verib, həmçinin, YAP-ın Azərbaycan dövlətinin inkişafında və möhkəmlənməsində əvəzsiz töhfələrini vurğulayıb. Millət vəkilliyinə namizəd Malik Həsənov, həmçinin, seçicilərin etimadını qazanaraq növbəti dəfə Milli Məclisə seçiləcəyi təqdirdə, görəcəyi işlər, diqqət ayıracağı əsas məsələlərlə bağlı da seçicilərə ətraflı məlumat verib. Eyni zamanda, cəlilabadlıları fevralın 9-da keçiriləcək seçkilərdə daha aktiv olmağa və ona səs verməyə çağırıb.

Görüşlərdə çıxış edən seçicilər YAP-ın namizədi Malik Əvəz oğlu Həsənovun ötən deputatlığı dövrünü yüksək qiymətləndirərək, 9 fevralda keçiriləcək seçkilərdə mütləq şəkildə ona səs verəcəklərini bildiriblər.

Görüşün sonunda seçicilər öz istək-arzularını və təkliflərini səsləndiriblər.

## LAÇIN

121 saylı Laçın seçki dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Mahir Abbaszadənin seçicilərlə ilk görüşü Sabunçu rayonu Bilgəh qəsəbəsində yerləşən "Qağayı" pansionatında baş tutub. Pansionata müvəq-





qəti məskunlaşmış laçınlı məcburi köçkünlər namizədə problemlərindən danışıb, təkliflərini veriblər. M.Abbaszadə onlara seçiləcəyi təqdirdə, görəcəyi işlərdən və planlarından danışıb.

Laçının ağsaqqalı Çərkəz kişi və sakinlər Mahir Abbaszadəni dəstəkləyəcəklərini bildiriblər. Daha sonra Bakı şəhəri Xəzər rayonu Buzovna qəsəbəsində Laçın rayonu Quşçu kəndindən şəhid Qüdrət İbrahimovun ailəsi ilə görüş keçirilib, onların qayğıları ilə maraqlanılıb. Daha bir görüş Kürdəxanı qəsəbəsində yaşayan şəhid Allahyarov İlqar Nurəddin oğlu və Allahyarov Sədrəddin Nurəddin oğlunun ailəsi ilə keçirilib. Deputatlığa namizəd daha sonra Laçın rayon sakini şəhid Vaqif Salmanovun ailə üzvləri ilə görüşüb.

Görüş zamanı Mahir Abbaszadə bildirib ki, o özü də məcburi köçkün olduğu üçün bu kateqoriyadan olan vətəndaşların problemlərinə yaxından bələddir. Seçicilərlə keçirilən görüşlər zamanı daim onları narahat edən, qayğıları və problemləri ilə bağlı müraciətlərinin həllinə çalışıb, zəruri olduqda müraciətlər aidiyyəti qurumlara yönləndirilib. Qeyd olunub ki, növbəti dəfə seçiləcəyi təqdirdə, Mahir Abbaszadə yenə də seçicilərinin yanında olacaq, onların müraciətlərinin həllinə çalışacaq, yerli və beynəlxalq tədbirlərdə millət vəkili kimi fəal iştirakını davam etdirəcək.

Qeyd edək ki, Laçın rayonundan olan məcburi köçkünlər Azərbaycanın 58 rayonunda məskunlaşıb. Onların səsvermədə iştirakını təmin etmək üçün 121 saylı Laçın seçki dairəsinin ölkə üzrə 102 seçki məntəqəsi fəaliyyət göstərir.

## MASALLI

Yanvarın 18-də 9 fevralda Milli Məclisə seçkilərlə bağlı YAP-ın 70 saylı Masallı şəhər Seçki Dairəsindən deputatlığa namizədi Məşhur Şahbaz oğlu Məmmədovun rayon seçicilərilə görüşü keçirilib. Görüşdə YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev fevralın 9-da səsvermə günü seçiciləri düzgün seçim etməyə səsləyib: "İnanıram ki, bu gün Azərbaycanımızın uğurlu gələcəyini düşünən hər bir seçici Yeni Azərbaycan Partiyasının irəli sürdüyü namizədə səs verməklə, düzgün seçim etmiş olacaq. Çünki bu seçim uğurlu, xeyirli və faydalı bir seçimdir".

S.Əliyev 70 saylı Masallı şəhər Seçki dairəsindən deputatlığa namizədi Məşhur Şahbaz olğu Məmmədovun həyat və fəaliyyəti ilə bağlı seçicilərə məlumat verib və YAP-ın Milli Məclisə irəli sürdüyü namizədin göstərilən etimadı yüksək səviyyədə doğruldacağına əminliyini bildirib.

S.Əliyev vurğulayıb ki, Yeni Azərbaycan Partiyası parlament seçkilərinə "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!" şüarı ilə gedir: "Çünki Azərbaycanın iqtisadi yüksəlişi bu gün göz qabağındadır. Məhz YAP-ın Seçki Proqramında da bu, öz əksini tapıb".

Görüşdə çıxış edən seçicilər də YAP tərəfindən Milli Məclisə deputatlığa namizədliyi irəli sürülən Məşhur Məmmədovun rayonda bir çox işlər gördüyünü, partiyaya sədaqətli olduğunu vurğulayıblar və seçki günü hamılıqla seçiciləri YAP-ın 70 saylı Masallı şəhər Seçki Dairəsindən deputatlığa namizədi Məşhur Şahbaz oğlu Məmmədova səs verməyə çağırıblar.

Görüşdə çıxış edən YAP-ın 70 saylı Masallı şəhər seçki dairəsindən deputatlığa namizədi Məşhur Şahbaz oğlu Məmmədov platforması barədə danışıb. O, şəhər sakinlərinin ona səs verəcəyi və deputat seçiləcəyi təqdirdə, verdiyi bütün vədlərin həyata keçirilməsinə çalışacağını bildirib.





Görüşdə iştirak edən Masallı rayon ictimaiyyətinin nümayəndələri, ağsaqqallar və ziyalılar Milli Məclisə seçkidə mövcud dövlət siyasətini dəstəkləməklə YAP-a inamını ifadə edəcək və YAP-ın 70 saylı Masallı şəhər Seçki Dairəsindən deputatlığa namizədi Məşhur Şahbaz oğlu Məmmədova səs verəcəklərini bildiriblər.

Daha sonra seçicilər onları maraqlandıran məsələlərlə bağlı deputatlığa namizəd Məşhur Məmmədova müraciətlər edib və suallar veriblər.

## SABUNÇU

Yeni Azərbaycan Partiyası Sabunçu rayon təşkilatının qərargahında VI çağırış Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin təbliğat-təşviqat kampaniyası çərçivə-




sində 27 saylı Sabunçu ikinci seçki dairəsindən YAP-ın deputatlığa namizədi Əliabbas Salahzadənin "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!" devizi altında seçicilərlə ilk görüşü keçirilib.

Ardı Səh. 12

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

## *Bu şüarla Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasına start verib*

**Əvvəli-Səh-11**

Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyası Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva Əliabbas Salahzadənin fəaliyyəti ilə bağlı məlumat verib və seçiciləri



9 fevralda keçiriləcək parlament seçkilərində daha fəal olmağa və Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıb.

Tədbirdə deputatlığa namizəd Əliabbas Salahzadə ona göstərilən etimada görə ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevə və Birinci vitse-prezident, Yeni Azərbaycan Partiyasının Sədr müavini Mehriban xanım Əliyevaya təşəkkürünü bildirərək, növbəti illər üçün Milli Məclisə üzv seçilərsə, rayon üçün inkişaf proqramının həyata keçirilməsi ilə bağlı daim çalışacağını qeyd edib.

### SAMUX

Yanvarın 21-də parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində 102 saylı Samux-Şəmkir Seçki





Dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Nizami Səfərovun Samux rayonunun Füzuli, Hacıalılı, Lək və Sarıqaya kəndlərində seçicilərlə görüşü olub.

Görüşdə çıxış edən N.Səfərov qeyd edib ki, Yeni Azərbaycan Partiyası bu seçkilərə böyük ruh yüksəkliyi və qələbə əzmi ilə qatılır. O, Ümummilli Liderin ideyaları əsasında fəaliyyətini davam etdirən Yeni Azərbaycan Partiyasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə böyük inkişaf yolu keçdiyini vurğulayaraq, seçiciləri parlament seçkilərində fəal iştirak etməyə çağırıb.

Seçicilərlə fərdi görüşlərə (məhəllə, evlər və sair) böyük önəm verən Nizami Səfərov rayonun Sarıqaya kəndində şəhid ailəsi ilə də görüşüb.

### MASALLI

Dünən 9 fevral parlament seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP Masallı rayon təşkilatı aparatında 70 saylı Masallı şəhər seçki dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Məmmədov Məşhur Şahbaz oğlunun "Daha güclü Azərbaycan naminə!" devizi altında rayon ictimaiyyəti və fəal qadınlarla görüşlər keçirilib.

Görüşlərdə YAP Masallı rayon təşkilatı seçki qərargahının sədri Seyfəddin Əliyev çıxış edərək VI çağırış Milli Mə-





clisə seçkilərdə Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülən Məşhur Məmmədov haqqında ətraflı məlumat verib və seçiciləri deputatlığa namizəd Məşhur Məmmədova səs verməyə çağırıb.

Seçicilər də çıxış edərək seçkilərdə fəal iştirak edəcəklərini, birmənalı olaraq, YAP-ın namizədinə səs verəcəklərini bildiriblər.

Deputatlığa namizəd Məşhur Məmmədov seçicilər qarşısındakı çıxışında bildirib ki, Milli Məclisə keçirilən seçkilərdə mənim namizədliyim Yeni Azərbaycan Partiyası tərəfindən bir daha sizin sakini olduğunuz ərazidən irəli sürülmüşdür: "Bu etimad mənim üçün olduqca fərəhli və ikiqat məsuliiyyəli bir sınaqdır. Əmin ola bilərsiniz ki, məni Milli Məclisin deputatı seçsəniz, hər birinizin problemini öz şəxsi vətəndaş problemim kimi qəbul edəcək, hər bir seçiciyə fərdi yanaşacaq, imkan daxilində həmin problemlərin həllinə yardımçı olacağam".

Qarşıdakı illərdə fəaliyyətini YAP-ın seçki proqramına uyğun olaraq, quracağını bildirən Məşhur Məmmədov seçicilərini əmin edib ki, gələcək dövr üçün nəzərdə tutulmuş iqtisadi inkişaf proqramlarının reallaşdırılması nəticəsində ölkəmizin qüdrəti daha da artacaq, iqtisadi fəaliyyətə və sahibkarlığa hərtərəfli dəstək veriləcək, yenə də xalqın mənafeyi və milli maraqları əsas tutulacaqdır.

### LAÇIN

Dünən Yeni Azərbaycan Partiyasının 121 saylı Laçın Seçki Dairəsindən Milli Məclisə namizədi Mahir Tapdıq oğlu Abbaszadə Xırdalan şəhərində yaşayan laçınlı seçicilərlə növbəti görüşü keçirilib. Görüşdə Yeni Azərbaycan Partiyası Laçın rayon təşkilatının sədri İlqar İlyasov Yeni Azərbaycan Partiyasının namizədi Mahir Abbaszadə haqqında seçicilərə məlumat verib.

Seçicilərlə görüşdə rayon ağsaqqalları və ziyalıları Varaşil Məmmədov, Şikar Qasımov, Aytac Abbasova, Əmirxan Zeynalov, Qanboy Həsənov, Afərim İsmayılova, Haqverdi Təhməzov, Saday İlyasov, Atamoğlan Çıraqov, Murad Kərimov və başqaları çıxış edərək, Mahir Abbaszadənin seçici-





lərinə daima diqqət və qayğı ilə yanaşdlığını bildirib.

Görüşdə Yeni Azərbaycan Partiyasının Milli Məclisə namizədi Mahir Abbaszadə bütün seçicilərə təşəkkürünü bildirərək, ölkəmizdə həyata keçirilən siyasətin uğurlu nəticələrindən danışıb. Vurğulayıb ki, əsası xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident İlham Əliyevin davam etdirdiyi siyasi kurs Azərbaycana çox böyük uğurlar qazandırıb. M.Abbaszadə millət vəkili seçiləcəyi təqdirdə, görəcəyi işlər barəsində də məlumat verib: "Millət vəkilinin ən əsas vəzifəsi ölkəmizin inkişafı üçün daha mütərəqqi, daha işlək qanunların qəbuluna çalışmasıdır. Mən də bu sahədə fəal olacağam. Həmçinin, hər bir seçicimizin problemlərinə öz problemim kimi yanaşacaq, onların həllində səylərimi əsirgəməyəcəyəm. Ən əsas isə, 9 fevralda keçiriləcək parlament seçkiləri zamanı hamılıqla YAP-ın namizədlərinə səs verməyə çağırıram".

### CƏLİLABAD

Yeni Azərbaycan Partiyasının 9 fevralda keçiriləcək parlament seçkiləri ilə bağlı təbliğat kampaniyası "Daha güclü Azərbaycan naminə!" şüarı ilə davam etdirilir. YAP tərəfindən 67 saylı Cəlilabad şəhər Seçki Dairəsindən deputatlığa namizədi Malik Əvəz oğlu Həsənov seçicilərlə növbəti görüşü yanvarın 21-də rayonun Şatırlı, Ləkin, Köyüzbulaq və Gəngah kənd seçiciləri ilə görüşü olub.



Görüşdə YAP Cəlilabad rayon təşkilatının sədri Mirsüleyman Mirxaslı açaraq qeyd edib ki, Malik Həsənovun fəaliyyəti Azərbaycanın inkişaf və tərəqqisində bir millət vəkili kimi, ilk növbədə, Vətəninə-dövlətinə və xalqına sadiqliyi ilə bağlıdır: "İnanıram ki, əldə olunan bu uğurları göz önündə tutan Azərbaycan xalqı yenə də öz doğru seçimini edərək, YAP-ın namizədlərini dəstəkləyəcək".

***Ardı Səh. 13***

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Bu şüarla Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasına start verib*

Əvvəli-Səh-12

Deputatlığa namizədin vəkili Cahangir Muradov Malik Əvəz oğlu Həsənovun rayonda seçicilərinin problemləri ilə daima maraqlandığını və həllinə çalışdığını deyib.



YAP-ın namizədi Malik Həsənov seçicilər qarşısında çıxış edərək, ölkə Prezidenti İlham Əliyevin Prezidentliyi dövründə respublikamızda, eləcə də, respublikamızdan kənarda apardığı sosial-iqtisadi işlərdən geniş danışıb. Bildirib ki, millət vəkili, ilk öncə, millətinin vəkili olmalı, dövlətinin, xalqının daha yaxşı rifahı üçün çalışmalı, bu işdə yorulmadan çalışmalıdır: "Məhz bu amili hər zaman diqqətində saxlayan millət vəkili seçicilərinin qarşısına inamla və fərəhlə çıxır. Hər bir sakinin sosial-məişət və s. problemlərini dinləməli, onları həll etmək bizim ümdə borcumuzdur. Mən də sizi əmin edirəm ki, bütün gücümlə sizin etimadınızı doğrultmağa çalışacağam. Həmçinin, hamınızı 9 fevralda keçiriləcək seçkidə YAP-ın namizədinə səs verməyə çağırıram".

Sonda kənd sakinləri mövcud problemlər barədə namizədə məlumat veriblər, təkliflər irəli sürüblər.

## ASTARA

Astara rayonu Ərçivan qəsəbəsində 9 fevral 2020-ci ildə keçiriləcək Milli Məclisə seçkilərlə əlaqədar olaraq, Yeni Azərbaycan Partiyası namizədi olan Rəşad Mahmudovla görüş keçirilib.





Görüşü giriş sözü ilə açan YAP Astara rayon təşkilatının sədri Firudin Əhmədov bildirib ki, ölkəmizdə keçirilən seçkilər, hər zaman mühüm siyasi hadisə kimi cəmiyyətimizin diqqət mərkəzindədir. F.Əhmədov qeyd edib ki, yüksək inkişaf yolu keçən ölkəmizdə keçirilən seçkilər şəffaflığı ilə həmişə öndə gedib. Qarşıdakı seçkilərin də uğurla keçəcəyinə bütün regionlarda olduğu kimi, astaralılar da inanır. Bu seçkilərin də qalibi Yeni Azərbaycan Partiyasının namizədləri olacaq.

Görüşdə çıxış edən seçicilərdən Sakitə Əliyeva, Heybət Süleymanov, Mehman Quliyev, Aslan Ağayev və başqaları, əvvəlki seçkilərdə olduğu kimi, bu seçkilərdə də fəal iştirak edəcəklərini və Yeni Azərbaycan Partiyası tərəfindən namizədi olan Rəşad Mahmudova səs verəcəklərini bildiriblər.

## DAŞKƏSƏN

Dünən 100 saylı Şəmkir-Daşkəsən Seçki Dairəsindən namizədliyi qeydə alınmış Kamran Bayramovun Daşkəsən seçiciləri ilə görüşü keçirilib. Azərbaycan Respublikasının Seçki Məcəlləsinin tələblərinə, müvafiq olaraq, ayrılmış rayon Mədəniyyət Mərkəzində 300 nəfər seçicilərlə keçirilən görüşdə iştirak edən seçicilər, birmənalı tərzdə 9 fevral





2020-ci ildə keçirilən seçkidə Yeni Azərbaycan Partiyasının namizədi Kamran Bayramova səs verəcəklərini bildiriblər.

Günün ikinci yarısı Daşkəsən şəhərində, Bayan və Quşçu kəndlərində də seçicilərlə görüşlər keçirilib. Keçirilən görüşlərdə seçicilər 100 saylı Şəmkir-Daşkəsən Seçki Dairəsindən namizədliyi qeydə alınmış Kamran Bayramova səs verəcəklərini bildiriblər.

Daha sonra seçicilər onları maraqlandıran məsələlərlə bağlı deputatlığa namizəd Kamran Bayramova müraciətlər edib və suallar veriblər.

## SURAXANI

30 saylı Suraxanı I Seçki Dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Sevinc Fətəliyeva 20 Yanvar hadisələrində Suraxanı rayonunun Hövsan qəsəbəsi sakinlərindən





şəhidlik zirvəsinə ucalmış Cəbrayıl Xanməmmədov və İbiş Məmmədovun qəbirlərini ziyarət edərək, azadlığımız uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirələrini yad edib. Eyni zamanda, şəhid İbiş Məmmədovun yaşadığı ünvanda onun ailə üzvləri ilə görüşü baş tutub.

Daha sonra sakinlərin müraciəti əsasında Hövsan qəsəbəsi, Zeytunluq adlanan ərazidə yaşayan bir qrup sakinlə görüş keçirildi. Sakinləri narahat edən məsələlər yerindəcə dinlənərək, müvafiq qeydlər aparılıb. Sakin Bəhram Səfərov onları narahat edən problemlərin həlli istiqamətində aidiyyati qurumlar qarşısında Sevinc Fətəliyevanın məsələ qaldıracağına inandığını bildirib. B.Səfərov Sevinc xanımın fəaliyyətindən razı olduqlarını və növbəti dəfə ona səs verəcəklərini qeyd edib. Sakinlərə təşəkkür edən Sevinc Fətəliyeva, onları 9 fevral tarixində keçiriləcək seçkilərdə fəal olmağa səsləyib.

## AĞDAŞ

Fevaralın 9-da Milli Məclisə keçiriləcək seçkilərin təbliğat-təşviqat kampaniyası çərçivəsinə Yeni Azərbaycan Partiyası Ağdaş rayon təşkilatı işini uğurla davam etdirir. Namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən 90 saylı Ağdaş Seçki Dairəsindən irəli sürülən YAP Ağdaş rayon təşkilatının sədri Cavid Osmanov kampaniya çərçivəsində rayonun





Dəhnəxəlil yuxarı Ağsayazı, Ərəbocağı və Pirkəkə kəndlərində seçicilərlə Qarabağ veteranları, əlilləri və mədəniyyət işçiləri ilə görüş keçirib.

Ərəbocağı kəndində keçirilən görüşü açan Cavid Osmanov geniş və əhatəli çıxış edib.

*Ardı Səh. 14*

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Bu şüarla Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasına start verib*

Əvvəli-Səh-13

Son illər ərzində ölkəmizin, davamlı olaraq, inkişaf mərhələsi keçdiyini qeyd edən Cavid Osmanov insanların sosial rifah halının yaxşılaşması, respublikada həyata keçirilən islahatlara diqqət çəkib. Ölkə miqyasında görülən işlər nəticəsində Ağdaş rayonunun da simasının dəyişməsi, daha da





abadlaşdırılması, kənd yollarının bərpa edilməsi, kommunikasiya xəttlərinin yenilənməsi, insanların məşğulluğunu təmin etmək üçün həyata keçirilən tədbirlərin davamlı hal aldığını bildirib. Bütün bu görülən işlərin isə Yeni Azərbaycan Partiyasının Sədri, Cənab Prezidentimiz İlham Əliyevin yürütdüyü düşünülmüş siyasətinin və yorulmaz əməyinin nəticəsi olduğunu görüş iştirakçılarının diqqətinə çatdırdı. Cavid Osmanov 2020-ci ilin ölkəmizdə "Könüllülər İli" olduğunu qeyd edərək, bunun ölkə gənclərinə ayrılan dövlətin bir diqqət və qayğısı olduğunu da vurğulayıb.

Təbliğat qrupunun üzvü Vaqif Hacıyev çıxış edərək, 9 fevral tarixində keçiriləcək parlament seçkiləri haqqında məlumat verib, Cavid Osmanovun V çağırış Milli Məclisin deputatı kimi fəaliyyətinə nəzər saldı və görmüş olduğu işlərdən danışıb. O, seçiciləri fevral ayının 9-da seçki məntəqələrinə gələrək, Yeni Azərbaycan Partiyasın namizədi Cavid Osmanova səs verməyə çağırıb.

Görüşlərdə seçicilərdən Ərəbocaq kənd sakinləri Natiq



Məmmədov, Məsturə Məbudova, Tapdıq Sadıqov, Pirkəkə kənd sakinləri Elşən Həşimov, Əhməd Osmanov və Əlizadə Məmmədov söz alaraq, Cavid Osmanovun namizədliyinin Yeni Azərbaycan Partiyası tərəfindən yenidən irəli sürülməsini fəxr və qürur hissləri ilə qarşıladıqlarını qeyd ediblər. Onlar bildiriblər ki, artıq seçimlərini ediblər və 9 fevral tarixində bu seçimi yekdilliklə təsdiqləyəcəklər. Çıxışlarda bildirilib ki, müstəqil Azərbaycan dövləti gündən-günə güclənir, ölkənin hər bir bölgəsi, eləcə də doğma Ağdaşımız inki-



şaf edir. Hər zaman olduğu kimi, bundan sonra da ağdaşlılar Cənab Prezidentimiz İlham Əliyevin siyasətinə sadiq qalacaqlar.

Görüşlərdə Cavid Osmanov seçiciləri maraqlandıran suallara ətraflı cavablar verib və onlarla xatirə şəkilləri çəkdirib.

***Rövşən***
***Rəfiqə HÜSEYNOVA***
***Zümrüd BAYRAMOVA,***
***NƏZAKƏT ƏLƏDDİNQIZI***

# Maraqlı dairədən layiqli namizəd!

***35 saylı Xətai üçüncü Seçki Dairəsindən deputatlığı qeydə alınmış namizəd, ehtiyatda olan zabit Vəkil Bağman oğlu Piriyev "YAŞASIN MÜSTƏQİL AZƏRBAYCAN!" və "HƏR ŞEY VƏTƏN ÜÇÜN" şüarları ilə seçki təşviqatına başlayıb.***

Növbəti taleyüklü tədbir ərəfəsində olan ölkəmizdə 9 fevral 2020-ci il parlament seçkilərində deputatlığa namizədliyi qeyd alınan şəxslərin seçicilərlə görüşləri keçirilir. Namizədlər seçicilərə özləri haqqında və deputat seçiləcəyi təqdirdə görəcəkləri işlərdən geniş və əhatəli məlumatlar verirlər. Cəmiyyətdə hökm sürən yüksək seçki ab-havası fonunda layiqli, həm də ictimai maraq dairəsində olan namizədlər var. Belə layiqli namizədlərdən biri də, 35 saylı Xətai üçüncü Seçki Dairəsindən deputatlığı qeydə alınmış namizəd, ehtiyatda olan zabit Vəkil Bağman oğlu Piriyevdir. Seçkilərə "YAŞASIN MÜSTƏQİL AZƏRBAYCAN!" və "HƏR ŞEY VƏTƏN ÜÇÜN" şüarı ilə qatılan Vəkil Piriyevin maraqlı, həm də qürurverici tərcümeyi-halı var.

Piriyev Vəkil Bağman oğlu 15.05.1977-ci il tarixində Qərbi Azərbaycanın Qafan rayonunun Gığı kəndində ziyalı ailəsində anadan olub. 1984-cü ildə Qafan rayonunun Gığı kəndində 1-ci sinifə getmiş və 1988-ci ildən 1992-ci ilədək Bakı şəhəri Nəsimi rayonu 19 saylı tam orta məktəbində və Bakı şəhəri Binəqədi rayonu 3 saylı tam orta məktəbində təhsil alıb. 1992-1995-ci illərdə əsası 1971-ci ildə Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş Cəmşid Naxçıvanski adına Hərbi Liseydə oxuyub. 1995-ci ildə dövlət tərəfindən Türkiyə Respublikası Silahlı Qüvvələrinin Quru Qoşunlarının Ali Hərbi Məktəbinə ali təhsil almağa göndərilib. (Ankara Kara Harp Okulu).1999-cu ildə həmin məktəbi bitirib və ona hərbi rütbə verilib. 1999-cu ildə Şimali Kipr Türk Dövlətində yerləşən "N" saylı hərbi hissədə müvafiq vəzifədə təcrübəçi zabit olaraq xidmət edib.1999-2000-ci illərdə Türkiyə Respublikası İstanbul şəhərində yerləşən Tuzla Piyadaçı Məktəbində (Tuzla Piyade Okulu) ixtisas artırma kursunu bitirib. 2000-2009-cu illərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrində Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissədə, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində, Cəmşid Naxçıvanski adına Hərbi Liseydə müvafiq vəzifələrdə xidmət edib.




2009-cu ildə Silahlı Qüvvələrdən ehtiyata buraxılıb. Hazırda ehtiyatda olan zabitdir. 2009-cu ildən bu günə qədər təsisçisi olduğu Veruel MMC-nin (hüquqi yardım göstərən firma) direktorudur. 2009-cu il tarixindən 2018-ci il tarixinədək (nümayəndəlik institunun ləğvinədək) məhkəmələrdə nümayəndə qismində fəaliyyət göstərib.

# Deputatlığa namizəd Əsmər Əliyeva Qarabağ əlilləri, veteranları ilə görüşüb

***46 saylı Şirvan şəhər seçki dairəsindən deputatlığa namizəd Əsmər Əliyevanın təbliğat-təşviqat görüşləri davam edir. Əsmər Əliyeva bu dəfə seçki qərargahında Qarabağ əlilləri, veteranları ilə görüşü olub.***



Görüşdə Əsmər Əliyeva Qarabağ əlillərini, veteranlarını salamlayaraq bildirib ki, sizlər hər bir vətəndaşın diqqət mərkəzində olmalısınız: "Sizlərə hər bir Azərbaycanlı hörmətlə yanaşmalıdır. Çünki sizlər bunu canınız bahasına torpaqlarımızın yağı düşməndən müdafiəsi zamanı qəhrəmanlığınızla haqq etmisiniz. Çox sağ olsun ölkəmizin Prezidenti cənab İlham Əliyev, Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyeva sizlərin məişət, mənzil, sosial problemlərinizi kökündən həll edib və dövlətin qayğısıyla hərtərəfli əhatə olunmusunuz və buna layiqsiniz də. Bildiyiniz kimi qarşıdan 9 fevral 2020-ci il tarixində ölkəmizdə növbəti parlament seçkiləri gəlir. Mən Əsmər Əliyeva 46 saylı Şirvan seçki dairəsindən deputatlığa namizədliyimi irəli sürmüşəm. Ona görədə mən təbliğat və təşviqat kampaniyasına başlayandan ilk görüşüm şəhid ailələri və sizlər oldunuz. Sizlərlə görüşüb həm söhbət olmaq mənim həyatımda xoş bir hadisə kimi yaddaşlarımda qalacaq. Diqqətinizə çatdırıram ki, millət vəkili seçilsəm Qarabağ əlillərinin və veteranlarının, şəhid ailələrinin, Çernobıl əlillərinin, ümumiyyətlə, bu kateqoriyadan olan insanları daim diqqətimdə saxlayacam, qarşıya çıxacaq problemlərinizin həlli üçün əlimdən gələni əsirgəməyəcəyəm. Bir daha sizlərə dərin hörmət və ehtiramımı bildirərək xoş arzularımı çatdırıram".



Qarabağ əlillərindən və veteranlardan Rahil Məlikov və Mehman Qəhrəmanov çıxış edərək Əsmər Əliyevaya yekdilliklə səs verəcəklərini bildiriblər və bütün şirvanlıları Əsmər Əliyevaya səs verməyə çağırıblar.

***İqbal Mikayılov***



# “Human Rights Watch” - qərəz və şantaj təşkilatı




## Bunu faktlar da sübuta yetirir

***Məlum olduğu kimi, “Human Rights Watch” təşkilatı bu dəfə parlament seçkiləri ərəfəsində, Azərbaycanla bağlı qərəzə və böhtana söykənən hesabat yayıb. Ümumiyyətlə, Azərbaycanın dünya birliyində reytinqinin getdikcə yüksəlməsi, çoxşaxəli islahatların reallaşdırılması, siyasi arenada söz sahibinə çevrilməsi və bu kimi digər əhəmiyyətli amillərə söykənən inkişaf trayektoriyasını genişləndirməsi bir sıra beynəlxalq qurumların, o cümlədən, “Human Rights Watch”ın zaman-zaman təşvişinə səbəb olub.***

Söz yox ki, bu qurumun “fəaliyyət prinsipi”, bilavasitə inkişaf etmək qətiyyətini ortaya qoyan ölkələrə qarşı istiqamətlənib və Azərbaycan bu sıralamada daim hədəfə götürülməkdədir. O da sirr deyil ki, “Human Rights Watch” kimi təşkilatların qərəzləri arxasında dayanan əsas təkanverici mənbə Qərbdə fəaliyyət göstərən güclü və zəngin erməni lobbisidir. Məhz bu baxımdan, mayaları böhtan və qərəzdən, siyasi şantaj üsullarından yoğrulmuş bu tipli “insan hüquqlarının müdafiəsi” təşkilatları beynəlxalq ictimaiyyətdə Azərbaycan əleyhinə mənfi rəy yaratmağa cəhd edirlər.

Pullar və siyasi korrupsiya hesabına “hesabatlar” yayan belə ikiüzlü qurumlara artıq inanan da yoxdur. Çünki onların hazırladıqları yalanla dolu hesabatlar, artıq bu qurumların iç üzünü və xəbis niyyətlərini çoxdan ortaya qoyub. Məsələn, üzə çıxan və ifşa olunan məqamlardan biri də budur ki, “Human Rights Watch” hər il, demək olar ki, eyni məzmunlu “hesabatlar” hazırlamaqla, sadəcə, rəqəm dəyişiklikləri edir. Bu isə, qurumun yalanlarını aşkar şəkildə üzə çıxarmış olur.

### Bu təşkilat daha çox Azərbaycanda “müxalifət” adı altında fəaliyyət göstərən dağıdıcı siyasi partiyaların dırnaqarası əməyindən “faydalanır”

Digər tərəfdən, o da gizlin deyil ki, ayrı-ayrı qrupların və satqınların sifarişi ilə fəaliyyət göstərən mənbələrin verdiyi məlumatlardan faydalanan “Human Rights Watch” təşkilatı daha çox Azərbaycanda “müxalifət” adı altında fəaliyyət göstərən dağıdıcı siyasi partiyaların dırnaqarası əməyindən “faydalanır”. Ona görə də, “Human Rights Watch” təşkilatı öz ciddiliyini itirib. Yəni qeyri-ciddi qurumlarla əlbir olan hər hansı bir təşkilatın ciddiliyindən söhbət gedə bilməz. Burada digər bir neçə məqamlara nəzər salaq. Məsələn, ölkə rəhbərliyinin davamlı şəkildə humanist addımlarına kölgə salmağa cəhd edən “Human Rights Watch” zaman-zaman iddia edib ki, Azərbaycanda hər il reallaşdırılan əfv fərmanları (burada müxtəlif cinayətlər törətmiş, vəzifə səlahiyyətlərinə aid olmayan qanunsuzluqlara yol vermiş jurnalistlər nəzərdə tutulub), sən demə, “ədalətli” hal deyilmiş (?!-R.N.). Belə bir “hesabat” ötənlərdə verilmişdi. Maraqlıdır, əgər həqiqətən də, belədirsə, bu zaman nəyə görə həmin təşkilat Qərbdə müxtəlif xüsusi xidmət orqanları tərəfindən təqib olunan jurnalistlərin hüquqlarının müdafiəsinə qalxmır? Əgər bu qurum bu qədər ədalətsevərdisə, fəaliyyət göstərdiyi məkandan minlərlə km. aralıdakı hadisələri deyil, Qərbdə - burnunun ucunda yaşanan qeyri-insani davranışlara və antidemokratik meyillərə hesabat hazırlayardı.

Ümumiyyətlə, “Human Rights Watch”ın Azərbaycanla bağlı hesabatı heç nəyi dəyişməyib və həmin çirkin ənənə davam edir. Radikal dini terrorçuları, məişət cinayətləri törədən “müxalifətçiləri”, daha kimləri və kimləri ortaya ataraq, onların adlarını “siyasi məhbus” qoyan bu qərəzli və siyasi həyasızlıq tərənnümçüsü, bəlkə özü də öz “hesabatına” inanmır. Lakin inansa da, inanmasa da, fakt budur ki, “Human Rights Watch” adlı təşkilat ciddi qəbul edilmir və bu təşkilatın Azərbaycanla bağlı verdiyi qərarların da heç bir əhəmiyyəti olmayıb, yoxdur və olmayacaq da...

***Rövşən NURƏDDİNOĞLU***



# “UĞURSUZ”luq damğası kimin alnına vurulub?

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Parlament seçkiləri ərəfəsində müxalifətli-iqtidarlı, ümumiyyətlə, MSK tərəfindən namizədlikləri qeydə alınmış şəxslərin ciddi hazırlıq işlərinin getməsi göz önündədir. Bu reallıq xalqın seçkilərə fəallıqla qatılacağı proqnozunu da bəri başdan göstərir. Yəni xalq seçkilərə, birmənalı olaraq inamla gedir. Lakin...***

Lakin daha bir maraqlı məqam budur ki, bu seçkilərdə “boykot taktikası” deyilən uğursuz cəhdə əl atanlar, yaxud həmin “taktikanı” əvvəlcə əllərində bayraq edib, sonradan fikirlərini dəyişərək, seçkilərə qatılanlar da var. Misal üçün, əgər AXCP sədri Əli Kərimli partiyası və “Milli Şura” adından seçkilərə qatılmayacağını bildirirdisə, onun kimi digər cinahda olanlar da, demək olar ki, eyni mövqeni sərgiləyirdilərsə, bu gün həmin mövqedən geri çəkilib parlament seçkilərinə gedəcəklərini bəyan edən “VİP” sədri Əli Əliyev və sairləri də var. İndi həmin bu Ə.Kərimli Ə.Əliyevi az qala böyük qəbahət işlətməkdə, düşərgəyə xəyanətdə suçlamaqdadır. Düzdür, bu gün AXCP sədrinin sözü - özü, ümumiyyətlə, “varlığı” kimsənin marağında deyil, heç belə də olmayıb. Biz elə də uzağa getməyərək, yay aylarında onun icazəsiz küçə yürüşlərindəki siyasi klounluqlarını xatırlaya, xalqın isə ona və ətrafına dəstək göstərmədiyini göstərə bilərik. Bunu isə, ona görə xatırladıram ki, on minlərlə seçici - xalq gerçəkliyi olaraq, kimlərinsə “boykot taktikasını”, ümumiyyətlə, hesaba almır. Türk qardaşlarımız demişkən, kimsənin umurunda deyil ki, Ə.Kərimli siyasi sirkinin - AXCP-nin səhnəsində hər hansı polyaçilik nömrəsini göstərir. Açığını desək, Ə.Kərimli, hətta sirk klounu olsaydı belə, yenə də bir uğur qazana bilməzdi. Onun alnına böyük və silinməz “UĞURSUZ!” damğası çoxdan vurulub...

Sağlıq olsun, seçkilər də keçiriləcək, qalib olmağa layiq olanlar da parlamentin növbəti - 6-cı çağırışına seçilib, deputat olacaqlar, ölkədə münbit seçki mühiti də sübut edəcək ki, bu proses şəffaf keçirilib. Dəyişilməyən bir şey, ya da kəs olacaq Ə.Kərimli. Misal üçün deyə bilərik ki, bu ünsür, seçkilərdə iştirak etməsə belə, seçkisonrası proseslərə burnunu dürtüb, başlayacaq kökdən düşmüş sazını dınqıldatmağa və dalay-dalaylarına. Amma əlbət bir gün onun yaxasından yapışıb soruşulacaq ki, ay polyaçi, ay kloun, axı sən “boykot taktikası” adı altında bu hadisəyə qatılmayıbsansa, bəs indi nə oldu? Niyə axı özünü, sözün əsl mənasında, didib-tökməklə məşğulsan? Maraqlıdır, görəsən, onda bu ünsür hansı cavabı verəcək..?

## ELAN

Bakı şəhəri Səbail rayonu İstiqlaliyyət küçəsi 7, 22 №-li mənzilə 02.12.2008-ci ildə verilmiş 0181452 saylı ÇIXARIŞ itdiyi üçün etibarsız sayılır.

***

ADPU-nun Coğrafiya müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Nəsirova Sevinc Ramil qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

“Tikinti - Quraşdırma Az NY TŞS” Qapalı Səhmdar Cəmiyyəti “Təmir-Tikinti” Az NY” Qapalı Səhmdar Cəmiyyətinin tərkibindən ayrılması nəticəsində, “Təmir-Tikinti” Az NY” Qapalı Səhmdar Cəmiyyəti yenidən təşkil olunur. Təmir-Tikinti Az NY QSC-nin idarə heyətinin sədri

***

Qəzetimizin 15 mart 2019-cu il tarixli sayında dərc olunmuş “Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Kənd Təsərrüfatı müəssisəsi tərəfindən 21 may 2003-cü ildə Qasımov Süleyman Ələsgər oğluna verilmiş Abşeron RİH başçısının 15 aprel 1999-cu il sərəncamından çıxarış itdiyi üçün etibarsız sayılır” məzmunda dərc olunmuş elan, həmin sənədin tapılması səbəbindən, etibarsız sayılır.

***

15.03.2005-ci ildə DT və XK-nin Quba rayon şöbəsi tərəfindən Nurəliyeva Humay Qasım qızının adına verilmiş JN-617F KOD 30319018 saylı torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

## Sumqayıtda avtobuslarda cibgirlik edən iki nəfər tutulub

Sumqayıt Şəhər Polis İdarəsinin əməkdaşları sərnişin avtobuslarında cibgirliklə məşğul olan şəxslərə qarşı əməliyyat keçiriblər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, 7 saylı marşrut xətti üzrə hərəkət edən avtobuslarda sərnişinlərin sıx olduğu vaxtlarda cibgirlik edən iki nəfər şəhər sakini - əvvəllər məhkum olunmuş Məmməd Məmmədov və Elnur Abbasov əməliyyat zamanı saxlanılıblar. Araşdırma zamanı hər iki şəxsin avtobuslarda ümumilikdə dörd vətəndaşın cibindən pul, mobil telefon və qiymətli əşyalar oğurladıqları müəyyən edilib.

Həmin şəxslərin avtobuslarda cibgirlik etmələri nəqliyyat vasitələrində quraşdırılan müşahidə kameraları vasitəsilə də anbaan qeydə alınıb. Faktlarla bağlı Sumqayıt Şəhər Polis İdarəsinin istintaq şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, istintaq-əməliyyat tədbirləri davam etdirilir. E.Abbasov və M.Məmmədovun Sumqayıt, eləcə də paytaxt ərazisində analoji cinayətlər etdikləri istisna olunmur. Onların əməllərindən zərərçəkən başqa vətəndaşlar varsa bu barədə ərazi üzrə polis idarə, şöbə və bölmələrinə, habelə Daxili İşlər Nazirliyinin 102 - Zəng Mərkəzinə məlumat verə bilərlər.

## Bakcell yeni “099” prefiksini istifadəyə verib




***Bakcell şirkəti özünün yeni “099” (və ya beynəlxalq yığım qaydası +99499 olan) mobil prefiksini kommersiya istifadəsinə verib. Nömrələrin satışı bu gündən etibarən həyata keçiriləcək. Yeni 099 prefiksi sayəsində istifadəçilər geniş çeşidli yeni nömrələrdən seçim imkanı əldə edəcəklər.***

İlkin mərhələdə Bakcell abunəçilərinə “099”la başlayan və uşaqların doğum günü və ya həyatlarının hər hansı əhəmiyyətli günü ilə bağlı olan xüsusi kombinasiyalı mobil nömrələr əldə etmək imkanı veriləcək. Həyatlarının vacib və yaddaqalan hadisəsini mobil nömrə vasitəsi ilə ifadə etmək və yaxud sadəcə gözəl bir kombinasiyalı nömrə əldə etmək imkanı müştərilərin əldə etdiyi nömrələrə əlavə dəyər qatacaq. Bütün bunlar isə Azərbaycanın ən üstün mobil şəbəkəsi (Ookla şirkəti tərəfindən keçirilmiş sınaqlara əsasən) və rahat müştəri xidmətlərindən istifadə etmək imkanı yaradır.

“Yeni 099 prefiksi vasitəsilə biz istifadəçilərə çox xüsusi və fərdi nömrələr əldə etmək üçün daha geniş imkanlar təklif edəcəyik və bu nömrələri ölkənin ən üstün mobil şəbəkəsində (Ookla şirkəti tərəfindən keçirilmiş sınaqlara əsasən) istifadə etmək onlara əlavə üstünlüklər qazandıracaq. Müştərilərimizə ən yüksək keyfiyyətli müştəri təcrübəsi ilə təmin etməyə yönəlmiş fəaliyyətimizi davam edəcəyik” deyə Bakcell şirkətinin baş icraçı direktoru Rainer Ratgeber bildirib.

Yeni 099 prefiksi ilə başlayan fərdi mobil nömrəni əldə etmək üçün “Bakcell”in istənilən diler mağazasına getmək və ya nomre.bakcell.com internet səhifəsindən istifadə etmək olar.

Qeyd edək ki, “099”la başlayan nömrələr aylıq abunə haqqı ilə təklif olunan aşağıdakı tariflərdən biri ilə aktivləşdirilir: “CIN5”, “DaimOnline6”, “DaimOnline10”, “Klass L”, “Klass XL”, “Klass XXL”, “Klass 3XL”. Bakcell xidmət və şəbəkə keyfiyyətinin müntəzəm qaydada təkmilləşdirilməsi vasitəsilə abunəçilərini ən üstün müştəri təcrübəsi ilə təmin etməyə davam edəcək.

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

Son səhifə

22 yanvar

# “Xalqımız “Daha güclü Azərbaycan naminə!” şüarı ilə bu seçkilərdə də qalib olacaq” namizədə imza atacaq”

***“Əsl siyasət konkret, real iş görməkdən ibarətdir”- deyən dövlət başçısının ötən illərdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar Prezident İlham Əliyevin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə, verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini və gerçəkliyə adekvat olduğunu göstərmişdir. Bu gəlişi gözəl söz deyil, real faktlara əsaslanan nəticələrdir. Çünki əsl siyasət konkret və real iş görməkdən ibarətdir. Bu gün müstəqil Azərbaycan inkişafının ən qüdrətli dövrünü yaşayır. Məhz bu inkişaf bütün dünyaya örnək olan Prezident İlham Əliyev siyasətinin uğurlu nəticəsidir ki, GÜCLÜ DÖVLƏT-GÜCLÜ XALQ birliyi nəticəsində Azərbaycan getdikcə möhkəmlənir. Hər bir vətəndaş da dövlət siyasətində xalq-iqtidar vəhdətinin uğurlu nəticəsinin şahidi olur.***



KAMIL MIRZƏYEV, YAP Biləsuvar rayon təşkilatının sədri

## Yeni Azərbaycan Partiyası dövlətin və xalqın maraqlarına cavab verən təşkilatdır

Ümumiyyətlə, seçkilər hər bir ölkənin həyatında mühüm siyasi hadisə olduğu qədər, həm də hər bir siyasi partiyanın dövlət və xalq qarşısında hesabatı və imtahanıdır. Tarix boyu dövlət və cəmiyyət həyatında müəyyən rol oynayan, demokratik, hüquqi və dünyəvi dövlətçiliyin əsas atributlarından sayılan siyasi partiyalar, adətən, obyektiv zərurətdən və milli tələbatdan yaranmışlar. Ona görə hər bir sivil cəmiyyətdə geniş əhali kütləsinin, ümumən, cəmiyyət üzvlərinin ictimai-siyasi həyatda iştirakı, məhz partiyalar vasitəsilə reallaşır. 28 ildir Azərbaycan siyasətinin avanqardı olan Yeni Azərbaycan Partiyasının respublikamızın hakim partiyası statusunu layaqətlə və uğurla daşımasını şərtləndirən əsas səbəb də, məhz onun ideoloji-siyasi kursunun dövlətin və xalqın maraqlarına cavab verməsidir. “Xalq-iqtidar vəhdəti” faktoru da bu amilə söykənir. Məhz bu baxımdan, fevralın 9-da keçiriləcək parlament seçkiləri ərəfəsində Yeni Azərbaycan Partiyası Azərbaycan cəmiyyətində öz yerinə, roluna, xalqdan aldığı dəstəyinə və aparıcı missiyasına görə öndədir.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyası Azərbaycandakı digər siyasi partiyalardan təkcə öz üzvlərinin sayına görə, əhali arasında qazandığı etimada görə fərqlənmir. Yeni Azərbaycan Partiyasının Azərbaycan cəmiyyəti tərəfindən birmənalı şəkildə dəstəklənməsinin başlacı səbəblərindən biri də bu partiyanın monolitliyini qoruyub-saxlaması və partiya üzvlərinin bütün qərarlarla bağlı vahid mövqe nümayiş etdirməsidir. Yeni Azərbaycan Partiyası yarandığı gündən bu vaxta qədər bir struktur kimi öz vahidliyini qoruyub-saxlayır. Partiyanın yaranmasından bu günə qədər keçdiyi yol hər zaman dəstəklənməsi bu partiyanın qeyd etdiyimiz kriteriyalara uyğun fəaliyyət göstərdiyini bir daha təsdiqləyir.

Əminliklə söyləyə bilərik ki, cəmiyyətin avanqard siyasi qüvvəsi kimi Yeni Azərbaycan Partiyası xalqımızın qarşısında duran vəzifələrin yerinə yetirilməsinə özünün layiqli töhfəsini verib və bu siyasət bu gün də uğurla davam etdirilir. Aparılan hazırlıq işləri, onu deməyə əsas verir ki, ölkənin ən böyük və nüfuzlu siyasi qüvvəsi və qələbələr partiyası kimi tanınan YAP-ın növbəti parlament seçkilərində qələbə qazanması labüddür. Seçki Məcəlləsinə uyğun olaraq, təbliğatın bütün sivil formalarından istifadə etməklə, bu dəfə keçiriləcək seçkilərdə də xalqın YAP-ın namizədlərini dəstəkləyəcəyi şübhə doğurmur.

Bu, bir reallıqdır ki, seçicilərin YAP-ın namizədlərinə səs vermələri üçün xeyli obyektiv səbəblər mövcuddur. Belə ki, son parlament seçkilərindən ötən beş il ərzində, Azərbaycan böyük inkişaf mərhələsi keçib. Ölkə Prezidenti, partiyanın Sədri İlham Əliyevin şəxsi nüfuzu, Onun daxili və xarici siyasətinin xalq tərəfindən dəstəklənməsi, eyni zamanda, YAP-ın cəmiyyətdə böyük nüfuzu, həmçinin, bu siyasi təşkilatın üzvlərinin fədakarlığı, ötən seçkilərdə qazanılmış təcrübə qarşıdan gələn parlament seçkilərində də partiyanın uğurlu seçki kampaniyası aparacağına inam yaradır. Bu baxımdan, siyasi təşkilatın tərtib etdiyi namizədlər siyahısı, hər zaman olduğu kimi, bu dəfə də xalqın marağı ilə uzlaşdırılıb. Belə siyahının qəbul edilməsi həm də parlamentdə xalqın sözünü deyə bilməsi üçün, tələb və təkliflərin verilməsi üçün münbit və qəbulediləndir. Onu da qeyd edək ki, növbəti VI çağırış Milli Məclis iclaslarında YAP-ı təmsil edən deputatlar, hər zaman olduğu kimi, öz fəallıqlarını göstərməklə partiyanın nüfuzunu daha da artıracaqlar.

Beləliklə, YAP-ın istər xalqa verilən vədlərin həyata keçirilməsində öz əksini tapması, istərsə də digər müvafiq məsələlərdə öncüllük təşkil etməsi bir ənənəyə çevrilibdir desək, yanılmarıq. Bu baxımdan, YAP-ın növbəti parlament seçkilərinə də yüksək hazırlıq işləri aparmaqla, Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş namizədlərini yüksək səviyyədə təbliğ edəcək, Seçki Məcəlləsinə uyğun olaraq, təbliğatın bütün sivil formalarından istifadə etməklə, onların qələbəsinə nail olacaq.

## “Jamaz.info” xəbər portalının təsisçisi və baş redaktoruna xəbərdarlıq edilib



Baş Prokurorluqda aparılmış araşdırmalarla “jamaz.info” xəbər portalında “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinin kobud şəkildə pozulmaqla Tovuz rayonunun Dondar Quşçu kənd sakini 10 yaşlı Nərmin Quliyevanın qəsdən öldürülməsi faktı üzrə həyata keçirilmiş istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri barədə Daxili İşlər Nazirliyinin və Baş Prokurorluğun mətbuat xidmətləri tərəfindən ictimaiyyətə ətraflı məlumatlar verilməsinə, eləcə də sensasiya naminə reallığı əks etdirməyən məlumatların yayılmaması məqsədilə aidiyyəti qurumların mətbuat xidmətləri ilə dəqiqləşdirmələrin aparılmasının tələb edilməsinə baxmayaraq, ayrı-ayrı vaxtlarda müxtəlif başlıqlı məqalələrdə, qəsdən və qərəzli şəkildə həqiqətə uyğun olmayan, istintaq araşdırmalarının maraqlarına zidd olmaqla cəmiyyətdə yanlış fikrin formalaşdırılmasına xidmət edən yalan məlumatların, həmçinin yayılması qanunla qadağan edilməklə ictimai fikirdə çaşqınlıq yaranmasına səbəb olan informasiyaların məqsədli şəkildə yayılması müəyyənləşdirilib.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bununla əlaqədar saytın təsisçisi və baş redaktoru İbişbəyli Fikrət Fərəməz oğlu Baş Prokurorluğa dəvət edilib. “Prokurorluq haqqında” Qanununun tələblərinə müvafiq olaraq, “Kütləvi informasiya vasitələri haqqında” Qanunun 10-cu maddəsinə əsasən, yalan və qərəzli yazıları yaymaq məqsədilə KİV-lərdən istifadə olunmasının yolverilməzliyi onun diqqətinə çatdırılıb. F.İbişbəyliyə gələcəkdə belə xarakterli, qərəzli və qanunvericiliyin tələblərinə zidd məlumatların yayılmasının davam etdiriləcəyi təqdirdə barəsində cinayət məsuliyyəti də daxil olmaqla, qanunvericilikdə nəzərdə tutulmuş daha ciddi tədbirlər görüləcəyi barədə rəsmi xəbərdarlıq edilib.

## “Nepsava” qəzeti: Merkel riskli oyun oynayır


NEPSZAVA
Angela Merkel interjúja az utolsó figyelmeztetés

Macarıstan mətbuatı bu günlərdə Almaniyada keçirilmiş Liviyada vəziyyətə dair beynəlxalq konfransın yekunlarını yüksək qiymətləndirir. Məsələn, “Nepsava” qəzeti qeyd edir ki, federal kansler Angela Merkel Liviyada qarşıdurma vəziyyətində duran tərəflərin, habelə bu işdə marağı olan dövlətlərin liderlərini Almaniya paytaxtına dəvət etməklə ciddi riskə gedib və öz üzərinə böyük siyasi məsuliyyət götürüb.

AZƏRTAC xəbər verir ki, bu barədə məlumat qəzetin birinci səhifəsində dərc edilib. Redaktorun fikrincə, Merkelin məqsədi Liviyanın növbəti “Suriyaya” çevrilməsinin qarşısını almaq idi. Konfransın uğurla başa çatacağına təminat yox idi, lakin Merkelin “va-bank” gedişi özünü doğruldub: tərəflər müvəqqəti də olsa atəşkəs barədə razılığa gəliblər. Xatırladaq ki, liderlər münaqişə aparan tərəfləri silahla təchiz etməmək barədə razılıq əldə ediblər.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in kompüter mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərindən istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600